HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 33 (875) ■ 30 avqust 2017 www.vergiler.az Qiymәti: 60 qәp.

## Prezident İlham Əliyev «Qarabağ» futbol klubunun heyətini qəbul edib



Avqustun 24-də Prezident İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksəlmiş «Qarabağ» futbol klubunun heyətini qəbul edib. Futbolçuları salamlayan dövlətimizin başçısı Prezident İlham Əliyev Ağdamın «Qarabağ» futbol klubunun UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmasını ölkəmizin futbol tarixində yeni səhifənin açılması kimi qiymətləndirib. «Siz gərgin mübarizədə bir daha göstərdiniz ki, Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür, peşəkardır və ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edir», - deyən Prezident İlham Əliyev bildirib ki, bu tarixi qələbə eyni zamanda ona görə önəmlidir ki, bu qələbəni hamımız üçün doğma və əziz olan «Qarabağ» komandası qazanıb. «Qarabağ» komandası Qarabağın adını daşıyır. «Qarabağ» komandası işğal altında olan Ağdam şəhərini təmsil edir. Ona görə sizin qələbənizin çox böyük əhəmiyyəti, mənası var. Bu, sadəcə olaraq, idman qələbəsi deyil, bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir.

Dövlət başçısı futbolçuların Azərbaycan bayrağını futbol sahəsində yüksəklərə qaldırdıqlarını qeyd edib: «Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı və xaricdə yaşayan milyonlarla azərbaycanlı sizin qələbənizə ürəkdən sevinirdi, fəxr edirdi ki, Azərbaycan komandası, xüsusilə «Qarabağ» adını daşıyan komanda bu gün dünyanın, Avropanın ən güclü komandaları arasında yer tutub. Bu qələbə eyni zamanda Azərbaycanda futbolun inkişafının təzahürüdür. Mən çox şadam ki, dünyanın ən populyar idman növü - futbol Azərbaycanda inkişaf edir. Biz bu inkişafı çoxdan gözləyirdik. Futbolçularımızın qələbələrini səbirsizliklə gözləyirdik. Bu gün hesab edirəm ki, bunun şahidiyik. Çünki həm klublar, həm milli yığma komandamız yaxşı nəticələr, ləyaqətli oyun, əzmkarlıq, iradə və vətənpərvərlik göstərir. Ona görə mən hesab edirəm ki, Azərbaycan futbolu gələcəkdə daha da sürətlə inkişaf edəcək, həm klublar, eyni zamanda, yığma komandamız ölkəmizi ləyaqətlə təmsil edəcək».

Prezident İlham Əliyev bu qələbəni son illərdə ölkəmizdə idman sahəsində görülən işlərin nəticəsi adlandırıb. Qeyd edib ki, idman Azərbaycanda dövlət siyasətidir: «Bu gün Azərbaycan dünya miqyasında idman dövləti kimi tanınır. İstər Avropa və dünya çempionatlarında, istərsə də Olimpiya Oyunlarında idmançılarımız yüksək nəticələr göstərirlər. Bakıda keçirilmiş birinci Avropa və IV İslam Həmrəyliyi oyunları bir daha Azərbaycan idmançılarının gücünü göstərdi. Biz komanda hesabında Avropa Oyunlarında ikinci, İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldük. Bu, tarixi qələbədir. Eyni zamanda, keçən il Rio Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 18 medal qazanmışlar və medalların sayına görə dünya miqyasında 14-cü yeri tutmuşlar. Bu, gənc müstəqil dövlət üçün tarixi nailiyyətdir. Çox şadam və bir daha qeyd etmək istəyirəm ki, ən məşhur, ən populyar idman növü olan futbol da Azərbaycanda inkişaf edir. Yeni stadionlar yaradılır, bizim tarixi Tofiq Bəhramov adına stadionumuz bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Dünyanın ən gözəl stadionlarından biri olan, təxminən 70 min tamaşaçı tutan Bakı Olimpiya Stadionu tikilmişdir. Digər stadionlar, bölgələrdə stadionlar, idman qurğuları tikilir. Çünki idmanın inkişafı, əlbəttə, idman infrastrukturunun mövcudluğuna bağlıdır».

Azərbaycan Prezidenti «Qarabağ»ın qələbəsindən sonra futbol bölmələrinə uşaqların axınının daha da güclənəcəyinə əminliyini ifadə edib. Bildirib ki, futbolçu olmaq, sizə oxşamaq istəyənlərin sayı artacaq: «Əlbəttə ki, bu, sizin üzərinizə əlavə məsuliyyət qoyur. Çünki sizi indi Azərbaycanda demək olar ki, tanımayan yoxdur. Sizə diqqət artacaq və necə ki, siz bu günə qədər həm idmanda, həm məişətdə özünüzü ləyaqətlə aparmısınız, əminəm ki, gələcəkdə də gənclər, gənc idmançılar üçün nümunə olacaqsınız. Dünənki qələbə təsadüfi qələbə deyildi. Siz bu qələbəyə doğru neçə ildir ki, gedirdiniz. Həm daxili çempionatda bir neçə dəfə çempion olmusunuz, neçə il Avropa Liqasının qrup mərhələsində iştirak etmisiniz. Mən sizinlə əvvəlki görüşümü xatırlayıram. O vaxt hakimin ədalətsizliyi ucbatından siz qələbədən məhrum edilmişdiniz. Onu da xatırlayıram ki, - o vaxt da mən bunu qeyd etdim, - ədalətsizliyə baxmayaraq, özünüzü çox ləyaqətlə, təmkinlə aparmısınız və ədalət öz yerini tapdı. Siz bu gərgin, çox açıq, ədalətli mübarizədə sübut etdiniz ki, Azərbaycan futbolu inkişaf edir və böyük qələbələr qazana bilər. Ona görə sizin qələbəniz təbiidir və ədalətlidir».

Dövlət başçısı «Qarabağ»ın son illər yüksək nəticələr əldə etməsində komandanın rəhbərliyinin əməyini, eyni zamanda, komandanın baş məşqçisi Qurban Qurbanovun xidmətlərini yüksək dəyərləndirib: «Qurban Qurbanov özünü futbolda həm peşəkar futbolçu, həm bilikli məşqçi, həm də vətənpərvər insan kimi təsdiqlədi. Eyni zamanda, - yəqin ki, tamaşaçılar da mənim fikrimə şərik olarlar, - Qurban Qurbanov özünü oyunlar zamanı çox ləyaqətlə aparır. Əminəm ki, onun davranışı, əminliyi və təmkini futbolçulara əlavə güc verir. Əlbəttə ki, futbolçuları təbrik etmək istəyirəm. Çünki bu qələbəni futbolçular qazanıblar. Futbolçu olmaq, idmançı olmaq çox böyük zəhmət, fədakarlıq tələb edir. Futbolçular, əfsuslar olsun ki, gənc yaşlarından zədələrlə üzləşirlər, əməliyyat olunurlar. Ağır işdir, ağır peşədir. Futbolçular göstəriblər ki, onlar böyük qələbələr qazanmağa qadirdirlər».

Prezident İlham Əliyev qeyd edib ki, bu gün «Qarabağ» futbol klubu Avropanın aparıcı klubları ilə yarışır və yarışacaq: «İndi bütün xarici kütləvi informasiya vasitələrinin xəbərlərində artıq Azərbaycanın «Qarabağ» klubu haqqında verilişlər gedir. Bu, əlbəttə ki, ölkəmizin təbliğində çox önəmli hadisədir. Yenə də bütün dünya görür ki, Qarabağ Azərbaycan torpağıdır. Yenə də görürlər ki, baxmayaraq Ağdam şəhəri işğal altındadır, ancaq onun təmsilçiləri Avropanı fəth edirlər. Bu, yenə də göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Onu göstərir ki, biz öz torpağımızda yaşayırıq və hamımız arzu ilə yaşayırıq ki, torpaqlarımız işğaldan azad olunsun. Hər bir qələbə, hər bir uğurumuz, istənilən sahədə uğurumuz o günü yaxınlaşdırır».

«Qarabağ» klubunun vitse-prezidenti Tahir Gözəl komandanın rəhbərliyini və üzvlərini qəbul etdiyinə və dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Qeyd edib ki, «Qarabağ» adını daşımaq bizlərə böyük bir şərəfdir. Biz xalqımız üçün əlimizdən gələni əsirgəməyəcəyik. Komandanın baş məşqçisi Qurban Qurbanov «Qarabağ» klubunun üzvlərinin öz üzərlərinə düşən işi uğurla və öz vəzifələrini ləyaqətlə yerinə yetirməyə çalışacaqlarını bildirib: «Biz bundan sonra daha çox çalışmalıyıq, daha məsuliyyətli olmalıyıq. Bacardığımız qədər, hətta bacardığımızdan da artıq çalışacağıq ki, futbolumuz ildən-ilə daha da irəli getsin».

## Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Təbrikdə öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dininin xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynadığı, mütərəqqi islami dəyərlərin və ənənələrin Azərbaycanda həmişə uca tutulduğu bildirilir. Dövlətimizin başçısı qeyd edir ki, İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər. Vurğulanır ki, xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Dövlətimizin başçısı əmin olduğunu bildirir ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir. Dövlətimizin başçısı təbriki bu sözlərlə bitirir: «Əziz bacı və qardaşlarım, bu mübarək gündə bir daha hamınıza Ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram. Qurban bayramınız mübarək olsun!».

## «Tufan» tipli sərhəd gözətçi gəmisi ilə tanışlıq

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş «Tufan» tipli sərhəd gözətçi gəmisi ilə tanış olub. Dövlət başçısına Gəmi İnşası və Təmiri Mərkəzində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində indiyədək «Şahdağ» tipli 6, «Tufan» tipli 4 sərhəd gözətçi gəmisi inşa olunub. 2016-cı ilin avqustunda DSX Sahil Mühafizəsinin «Tufan» tipli sərhəd gözətçi gəmilərindən biri Rusiya Federasiyasının Həştərxan şəhərinə dostluq səfəri edib, «Dənizdə qanunsuz tədbirlərə qarşı əks-tədbirlər, həmçinin Xəzər dənizi hövzəsində yaranmış müxtəlif şəraitlərdə reaksiya göstərilməsi üzrə birgə hərəkətlərin işlənilməsi» mövzusunda sərhəd təliminə qatılıb. Bu ilin avqustunda isə «Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində qaçaqmalçılıq, qeyri-qanuni ticarət, mütəşəkkil cinayətkarlıq və enerji infrastrukturuna qarşı terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirməklə terrorçu qrupların zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması» mövzusunda döyüş atışlı taktiki sərhəd təlimləri keçilib. Taktiki təlimə cəlb olunmuş gəmilərin əksəriyyəti Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı əsasında yaradılmış Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilib.

Azərbaycanın Ali Baş Komandanı «Tufan» tipli növbəti sərhəd gözətçi gəmisinin təməlini qoyub, sərhəd gözətçi gəmisi ilə yaxından tanış olub.

## İlk «Embraer 190» təyyarəsi Bakıya gətirilib



Azərbaycanda turizmin inkişaf etdirilməsi dövlətin əsas prioritetlərindən biridir. Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə turizm obyektlərinin yaradılması ilə yanaşı, nəqliyyat infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. «Buta Airways» aviaşirkətinin lou-kosterinin yaradılması da Azərbaycanın dövlət başçısının Nazirlər Kabinetinin iclasında aviabiletlərin qiymətinin aşağı salınması ilə bağlı verdiyi müvafiq tapşırığına əsasən görülən işlərdəndir.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Hava Yolları» QSC-nin nəzdində yaradılan «Buta Airways» aviaşirkətinin Bakıya gətirilən ilk «Embraer 190» təyyarəsi ilə tanış olub.

«Buta Airways» aviaşirkətinin yeni «Embraer 190» təyyarəsi barədə dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, ekonom sinif modifikasiyalı bu təyyarə 106 sərnişin tutumuna malikdir. «Buta Airways» ən çox tələb olunan istiqamətlərə uçuşlar yerinə yetirəcək. Sentyabrın 1-dən etibarən Bakıdan Moskva, Kiyev, Antalya, Kazan, Mineralnıye Vodı, Tbilisi və Tehrana, oktyabrın 29-dan isə tətbiq ediləcək qış uçuş cədvəlinin başlamasıyla Bakıdan İstanbula və Sankt-Peterburqa, eləcə də Gəncədən Moskvaya uçuşlar olacaq. Bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir. «Buta Airways» tipik lou-koster sxemi üzrə fəaliyyət göstərir və baqajın daşınması, təyyarədə isti yeməklər, yer seçimi və digər xidmətlər əlavə ödəniş müqabilində təklif ediləcək. Yaxın günlərdə şirkətin daha bir yeni «Embraer 190» təyyarəsinin Bakıya gətirilməsi nəzərdə tutulur. Ümumilikdə isə aviaşirkətin hava gəmiləri parkındakı «Embraer 190» təyyarələrinin sayı 8-ə çatdırılacaq. Bu layihənin icra edilməsi ölkə vətəndaşlarının daha ucuz qiymətə dünyanın müxtəlif şəhərlərinə səyahət etməsinə imkan yaratmaqla yanaşı, Azərbaycana turist axınının artmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcək.

BU NÖMRƏMİZDƏ

KOREYA RESPUBLİKASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ — 2

AZƏRBAYCANDA AQRAR SEKTORDA VERGİTUTMA — 3

AZƏRBAYCAN İQTİSADİYYATI YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ — 4

AQROPARKLARIN PERSPEKTİVLƏRİ BÖYÜKDÜR — 5

# Koreya Respublikasının nümayəndələri ilə görüş

**Vergilər Nazirliyində keçirilmiş görüşdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-qyunun başçılıq etdiyi nümayəndə heyətini salamlayaraq ölkələrimiz arasında münasibətlərin və ikitərəfli əlaqələrin gündən-günə genişləndiyini qeyd edib, ölkəmizin vergi sistemi, iqtisadi sahədə, o cümlədən vergi orqanlarında həyata keçirilən islahatlar barədə qonaqlara ətraflı məlumat verib.**

Bildirilib ki, Azərbaycan regionun iqtisadi coğrafiyasında mühüm yer tutur, ölkəmizdə xarici investisiyalar üçün əlverişli şərait yaradılıb, investorlar üçün iqtisadiyyatın bir çox sektorlarında vergi güzəştləri müəyyənləşdirilib. Azərbaycan Koreyadan olan daha çox şirkətlərin ölkəmizdə fəaliyyət göstərməsində maraqlıdır.

Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-qyu ölkələrimiz arasındakı əlaqələrdən məmnunluğunu ifadə edib. Səfir Azərbaycanda gedən sürətli inkişaf proseslərinin dərin təəssürat yaratdığını qeyd edib, Koreya Respublikasının Azərbaycanla ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın sərmayə qoyuluşu, yüksək texnologiyalar, sənaye, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Vergilər Nazirliyi ilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.



Görüşdə KOICA-nın Azərbaycan ofisinin direktoru Choi Yeon Jae də iştirak edib.

# «Stressin idarə edilməsi» mövzusunda təlim

Vergilər Nazirliyinin Tədris Mərkəzində dövlət vergi orqanlarının rəhbər vəzifəli şəxsləri üçün «Stressin idarə edilməsi» mövzusunda təlim təşkil edilib.

Tədbirdə Vergilər Nazirliyi yanında Milli Gəlirlər, Bakı şəhəri Lokal Gəlirlər, Kiçik Sahibkarlıqla İş və Vergi Cinayətlərinin İbtidai Araşdırılmsı departamentlərinin, Çağrı Mərkəzinin, Tədris Mərkəzinin və ərazi vergi idarələrinin rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

Azərbaycanın tanınmış psixoloqu Həlimə Qəmərlinskayanın keçdiyi təlim zamanı qeyd edilib ki, müasir dövrün ən geniş yayılmış problemlərindən biri də iş zamanı yaranan stresslərin, psixoloji gərginliklərin idarə edilməsidir. Dinləyicilərə stress anlayışı, onun yaranma səbəbləri barədə ətraflı məlumat verilib, psixoloji amillərin təsiri izah olunub. Təlim iştirakçılarına stress təzahürlərinin emosional, intellektual, davranışla bağlı və fizioloji simptomları, eləcə də stressin qarşısının alınması və ya təsirinin azaldılması yolları barədə məlumat verilib.

# «Sülh aylığı» davam edir

12 saylı Ərazi Vergilər Departamentinin (ƏVD) Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin əməkdaşları Gəncə şəhərində fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirib. «Sülh ayı» çərçivəsində təşkil edilmiş tədbirdə 12 saylı ƏVD-nin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev çıxışnda diqqəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına yönəldərək bildirib ki, hazırda vergi orqanları tərəfindən vergi ödəyicilərinə böyük çeşiddə xidmətlər göstərilir, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şərait yaradılıb, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi məqsədilə şəffaf vergi partnyoluğu layihəsi tətbiq olunur. Bu il 12 saylı ƏVİ üzrə 56 vergi ödəyicisinə şəffaf partnyorluq statusunu təsdiqləyən bildirişlər təqdim edilib, hazırda bu istiqamətdə işlər davam etdirilir.

R.Mirzəyev sahibkarlar tərəfindən vergi qanunvericiliyinin tələblərinin yerinə yetirilməsi vəziyyəti, vergi uçotunun düzgün aparılması qaydaları, keçirilmiş vergi nəzarəti tədbirləri zamanı vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinin tələblərinə riayət etmələri, sahibkarların yol verdiyi tipik nöqsanlar və bunların aradan qaldırılması yolları barədə danışıb. Qeyd edib ki, vergi nəzarəti tədbirləri zamanı ən çox rast gəlinən hüquq pozuntuları uçotdankənar sahibkarlıqla bağlıdır. Ödəyiciləri cərimələrlə üzləşmək məcburiyyəti qarşısında qoyan amillərdən biri nəzarət-kassa aparatlarına (NKA) çek vurulmaması hallarıdır. Bəzi təsərrüfat subyektlərində POS-terminallar quraşdırılsa da, ondan istifadə edilməməsi də narahatlıq doğurur. Bildirilib ki, vətəndaşlar kartla alış-veriş etmək istədikləri halda bu cihazların işləməməsi onların haqlı narazılığına səbəb olduğuna görə, bu cür hallar aradan qaldırılmalıdır. Təsərrüfat subyektlərində nağdsız hesablaşmalara riayət edilməsi sahəsində də nöqsanlar diqqətə çatdırılıb.

Könüllü vergi ödənişinin yüksəldilməsi ilə bağlı qeyd olunub ki, vergi qanunvericiliyinə əməl etmək hər kəsin qanunla müəyən edilmiş borcudur.

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin şöbə rəhbəri Adil Şükürov sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzlərin təqdim edilməsi barədə məlumat verib. Bildirib ki, indiyədək ərazidə fəaliyyət göstərən sahibkarlara sabit məbləğin ödənilməsinə dair 502 qəbz verilib, vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə ödəyən digər şəxslərə qəbzin verilməsi barədə işlər aparılır. Vergi orqanında uçota alınmamış şəxslərə ərazi vergi orqanına müraciət edərək VÖEN almaqları tövsiyə olunub.

12 saylı ƏVD-nin dövlət vergi müfəttişi Səbuhi Əhliyyətli ictimai iaşə və xidmət sektorunda vergitutmanın vəziyyəti, sahibkarlıq subyektlərində işəgötürənlər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsinə cəlb edilmiş fiziki şəxslərlə əmək və ya mülki müqavilələrin rəsmiləşdirilməsi və vergilərin ödənilməsi prosedurları, müəssisələrin gəlir və xərclərinin uçotunun aparılması qaydaları, nəqliyyat xidməti və daşımalarda vergitutma məsələləri, sabit verginin tətbiqi və digər məsələlər barədə ətraflı məlumat verib.

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev avqustun 21-dən sentyabrın 21-dək respublikamızda keçirilən «Sülh ayı»nın əhəmiyyətinə toxunaraq bildirib ki, sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir.

Tədbirin sonunda vergi ödəyicilərinin sualları cavablandırılıb.

# Daha 101 dövlət əmlakı özəlləşdirilir

***Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən sentyabrın 26-da keçirilməsi nəzərdə tutulan yeni hərrac elan olunub***

Hərraca ümumilikdə 101 dövlət əmlakı çıxarılıb ki, bunların 25-i səhmdar cəmiyyəti, 15-i kiçik dövlət müəssisə və obyekti, 50-si istifadəsiz qeyri-yaşayış sahəsi və 11-i nəqliyyat vasitəsidir.

Hərracda əmlak sahibi olmaq istəyən vətəndaşın cəmi 2 sadə proseduru yerinə yetirməsi kifayətdir: komitənin elektron xidmətlər portalı vasitəsi ilə sifariş vermək; əmlakın satış qiymətinin 10%-i məbləğində behi ödəmək. Sifarişlər hərracın keçirilməsinə üç bank günü qalanadək verilməlidir.

Hərraca çıxarılan kiçik dövlət müəssisəsi və obyektinin əksəriyyəti torpaq sahəsi ilə birlikdə özəlləşdiriləcək. Həm torpaq sahəsinin, həm də tikilinin ayrıca qiymətləndirilməsi aparılıb. Torpaq sahəsi ilə birgə hərraca çıxarılan əmlaklar Bakıda, həmçinin Qazax, Şirvan, Ağstafa rayonlarında yerləşir. Hərraca çıxarılan müəssisələr sırasında Qazaxdakı «Elviz» kiçik dövlət müəssisəsi, Ağstafada yerləşən Qazax Kənd Tikinti Birliyi kimi iri dövlət əmlakları var.

Hərracda özəlləşdirilməsi nəzərdə tutulan istifadəsiz qeyri-yaşayış sahələrindən 47-si paytaxtda, qalanları isə Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərində yerləşir. Ən yüksək ilkin satış qiyməti paytaxtın Nəsimi rayonunda yerləşən qeyri-yaşayış sahəsinə təklif olunub.

Hərracda özəlləşdiriləcək səhmdar cəmiyyətləri məişət, təmir-tikinti, sənaye, aqrar, nəqliyyat, inşaat, istehsal və s. sahələrə aiddir. Belə iri müəssisələr sırasında «Qax Taxıl», «Ağdaş Quşçuluq», «Salyan Aqrotexservis», «Yevlax Yük Avtonəqliyyat», «Salyan broyler» «İsmayıllı Təmir Tikinti» kimi səhmdar cəmiyyətlər var.

Xatırladaq ki, istənilən şəxs və ya media üzvü hərrac günü gəlib hərracda iştirak edərək prosesi izləyə bilər. Eyni zamanda, hərrac zalındakı böyük monitorlar vasitəsilə respublikanın digər şəhər və rayonlarında keçirilən hərraclar da canlı izlənilir.

Əmlak Məsələləri Dövlət Komitəsi yerli və xarici investorları, sahibkarları, iş adamlarını və mülkiyyət sahibi olmaq istəyən hər bir kəsi özəlləşmədə fəal iştirak etməyə dəvət edir.

Hərrac barədə zəruri məlumatlar komitənin rəsmi internet səhifəsində, özəlləşdirmə portalında (privatization.az) və «facebook» səhifəsində yerləşdirilib.

# «Turan İnformasiya Agentliyi»MMC-də yol verilmiş qanunsuzluqlar ifşa edilmişdir

«Turan İnformasiya Agentliyi» MMC-də Vergilər Nazirliyi tərəfindən vergi risklərinin mövcudluğu və vergidən yayınma hallarına yol verilməsinin araşdırılması məqsədilə aparılmış səyyar vergi yoxlamasının nəticələrinə əsasən xeyli miqdar təşkil edən vergiləri dövlət büdcəsinə ödəməkdən yayınma faktı üzrə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsində Cinayət Məcəlləsinin 213.1-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanmışdır.

İstintaq zamanı «Turan İnformasiya Agentliyi» MMC-nin direktoru Mehman Əliyevin qulluq səlahiyyətlərindən sui-istifadə edərək müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini öz üzərinə götürməsi və sahibkarlıq fəaliyyəti üzrə nəzərdə tutulmuş funksiyaları özü yerinə yetirməklə «Qrant haqqında» Azərbaycan Respublikası Qanununun tələblərini pozub, 2010-2014-cü illərdə dövlət qeydiyyatına alınmamış qrant müqavilələri üzrə külli miqdarda, yəni 148.310 manat məbləğində qanunsuz gəlir əldə edərək qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına, habelə 2010-2016-cı illərdə vergi orqanına təqdim etdiyi mənfəət vergisi bəyannamələrinə təhrif olunmuş məlumatlar daxil etməklə xeyli miqdar təşkil edən 60.080 manat məbləğində mənfəət vergisini dövlət büdcəsinə ödəməkdən yayınmasına əsaslı şübhələr olduğu müəyyən edilmişdir.

M.Əliyev 2017-ci il avqustun 24-də şübhəli şəxs qismində saxlanılmış, ona Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham elan edilərək, Yasamal rayon məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

# Qeyri-neft sektorunda ixrac imkanları artır

**Azərbaycanda idxaldan asılılığı azaltmaq, tələbatı daxili istehsal hesabına təmin etmək və ixrac imkanlarını genişləndirmək ölkə prezidentinin hökumət qarşısında qoyduğu əsas tələblərdəndir. Bu tələbin yerinə yetirilməsi istiqamətində görülən işlər öz müsbət nəticələrini verir.**




Bu ilin yeddi ayında Azərbaycanın qeyri-neft sektorundan 855 milyon ABŞ dolları dəyərində mal ixrac olunub. Dövlət Gömrük Komitəsinin son məlumatlarına görə, ixrac əməliyyatlarında 1333 subyekt iştirak edib. Qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistanın adı var. Yeddi ay ərzində Rusiyaya 311, Türkiyəyə 178, Gürcüstana 78, İsveçrəyə 77, Türkmənistana 38 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

İxracda birinci yeri pomidor (tomat) (127,9 milyon ABŞ dolları), ikinci yeri qızıl (60,7 milyon ABŞ dolları), üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (54,4 milyon ABŞ dolları) tutur. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yeddi ayı ərzində pambıq lifi ixracı 8,3 dəfə, elektrik enerjisi 3,2 dəfə, çay 60 faiz, meyvə-tərəvəz 42 faiz, kimya sənayesi məhsulları 30 faiz, alüminium və ondan hazırlanan məmulatlar 29 faiz, spirtli və spirtsiz içkilər 26 faiz, plastmas və onlardan hazırlanan məmulatlar 12 faiz artıb.

Təkcə 2017-ci ilin iyul ayında qeyri-neft sektoru üzrə 459 subyekt tərəfindən 117 milyon ABŞ dolları dəyərində ixrac əməliyyatları həyata keçirilib. İxrac olunan əsas mallar qızıl, albalı, gilas, metanol, pomidor, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, tərkibində 0,25%-dən çox karbon olan polad yarımfabrikatlar, alüminium ərintilərindən qalınlığı 0,2 mmdən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar, şəkər, şaftalı və s. olmuşdur.

2017-ci ilin yeddi ayı ərzində Azexport. az portalına dünyanın 53 ölkəsindən 264,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub. Azexport.az portalına iyul ayında daxil olan ixrac sifarişlərinin dəyəri iyun ayı ilə müqayisədə 15% çox olub. Portala 2017-ci ilin yanvar ayında 48 milyon, fevral ayında 6,5 milyon, mart ayında 27 milyon, aprel ayında 29,9 milyon, may ayında 19 milyon, iyun ayında 62,3 milyon və iyul ayında 71,6 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri edilib. Portala ən çox sifariş Rusiya Federasiyasından daxil olub. Ümumiyyətlə bu ilin 7 ayı ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri ilə bağlı liderliyi Rusiya əlində saxlayıb. Bu ilin yeddi ayı ərzində Rusiyaya 311 milyon ABŞ dolları dəyərində ixrac reallaşıb ki, bu da qeyri-neft sektoru üzrə ixracatın 36,4 faizi deməkdir.




İyul ayında Azexport.az portalına ilk dəfə Qətər, Tanzaniya və Ekvador kimi ölkələrdən də sifarişlər daxil olub. Qida sənayesi məhsulları başda olmaqla qeyri-neft sektorunda istehsal olunan müxtəlif məhsullara - fındıq ləpəsi, şərab, kosmetik vasitə, tütün, göbələk, uşaq iç geyimi, konservləşdirilmiş inək əti, quru süd, mebel, toyuq yumurtası, dondurulmuş toyuq əti, albalı şirəsi, ipək xalça, mahlıc, pambıq linti, alma, kərə yağı, avtomobil diaqnostika qurğusu, mühərrik yağı və s. xarici tələbat böyükdür. Mahlıc, pambıq linti, alma, fındıq ləpəsi, toyuq əti kimi məhsullara müxtəlif ölkələrdən daxil olan sifarişlərin hər birinin dəyəri ayrı-ayrılıqda 1 milyon ABŞ dollarından çox olub. Sifarişlərə əsasən, İngiltərə, Almaniya kimi inkişaf etmiş ölkələrdə Azərbaycan xalçalarına da böyük maraq olduğunu görürük. Son aylar Avropa ölkələrindən əlavə, Qazaxıstan, Tanzaniya və digər dövlətlərin vətəndaşları da xalça sifarişləri veriblər.

**RƏŞAD**

# Azərbaycanda aqrar sektorda vergitutma



Qeyri-neft sektorunun prioritet sahəsi hesab edilən kənd təsərrüfatının inkişafı, məhsul istehsalının və satışının stimullaşdırılması, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Müşahidələr göstərir ki, aqrar sektorun vergiyə cəlb olunması ilə bağlı vergi ödəyiciləri tərəfindən bir sıra suallar yaranır. Məsələnin aktuallığını nəzərə alaraq həmin suallarla Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanova müraciət etdik.

***- Nicat müəllim, söhbətimizə Vergi Məcəlləsində edilmiş son dəyişikliklərdə müəyyənləşdirilmiş anlayışlardan başlayaq: kənd təsərrüfatı məhsullarının istehsalı və satışı anlayışları özündə hansı vacib şərtləri birləşdirir?***

- Kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilmişdir və bu güzəştlər kənd təsərrüfatı məhsullarının birbaşa istehsalı ilə məşğul olan şəxslərə tətbiq edilir. Həmin şəxslər həm də istehsal etdikləri kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olurlar. Bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalçısı olmayan şəxslər tərəfindən istehsalçılardan tədarük edilərək digər şəxslərə satılması, habelə hər hansı formada emal edilməklə satılması ümumi qaydada vergiyə cəlb edilir. Bu sahələrdə yaranan fikir ayrılığı və mübahisələrin aradan qaldırılması üçün kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsinə zərurət yaranmış və ötən ilin sonunda Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilərək Vergi Məcəlləsinə kənd təsərrüfatı məhsullarının istehsalı və satışı anlayışı əlavə edilmişdir.

Vergi Məcəlləsinin 13.2.60-cı və 13.2.61-ci maddələrinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalı anlayışı özündə sənaye üsulu da daxil olmaqla heyvanların və quşların yetişdirilməsini, bəslənməsini, diri şəkildə olarkən onlardan məhsulların ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən əldə edilməsini, kənd təsərrüfatı məhsullarının satışı sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə istehsal olunan canlıların diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsulların ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan təqdim edilməsini nəzərdə tutur.

***- Vergi ödəyicisi həm özünün istehsal etdiyi, həm də digər şəxslərdən aldığı kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olarkən vergi öhdəliklərini necə yerinə yetirməlidir?***

- Vergi Məcəlləsinin müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr mənfəət (gəlir) vergisindən, əlavə dəyər vergisindən, sadələşdirilmiş sistem üzrə vergidən və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərin əmlak vergisini ödəməkdən azad edilmişdir.

Buna əsasən kənd təsərrüfatı məhsullarının istehsalçılarının özlərinin istehsal etdikləri və emal məhsulu olmayan malların satışı üzrə əldə etdiyi gəlirləri mənfəət (gəlir) vergisindən, əlavə dəyər vergisindən, sadələşdirilmiş sistem üzrə vergidən azaddır. Lakin istehsalçı istehsal etdiyi kənd təsərrüfatı məhsullarından emal məhsulu formalaşdırırsa (məsələn, yetişdirilmiş mal-qaranın kəsilərək ət şəklində satışı, becərilmiş meyvələrin qurudularaq satışı), həmin emal məhsullarına görə ümumi qaydada seçdiyi vergitutma metodundan (mənfəət (gəlir vergisi) və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidir.

Bunlarla yanaşı, vergi ödəyicisinin digər şəxslərdən aldığı kənd təsərrüfatı məhsullarının satışı onun istehsal etdiyi kənd təsərrüfatı məhsulu hesab edilmir və həmin məhsulların satışından əldə olunan gəlirlərdən ümumi qaydada vergilər hesablanıb dövlət büdcəsinə ödənilir.

Göründüyü kimi, kənd təsərrüfatı məhsullarının tədarük qaydasında alğı-satqısını həyata keçirən şəxslər kənd təsərrüfatı məhsullarının istehsalçıları hesab edilmir və onlara bu sahə üzrə nəzərdə tutulmuş vergi güzəştləri tətbiq edilmir.

***- Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı zamanı hansı vergi öhdəlikləri yaranır?***

- Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışından əldə edilən gəlirlər sadələşdirilmiş vergitutma metodu tətbiq edildiyi halda təqdim edilmiş mallara görə hasilatın həcmindən (xərclər çıxılmadan) Bakı şəhərində 4 faiz dərəcə ilə hesablanır. Gəlir vergisi metodu tətbiq edildiyi halda isə təqdim edilmiş mallara görə əldə olunan gəlirdən təqdim olunan malların alınmasına çəkilən xərclər, habelə qanunla nəzərdə tutulmuş icbari ödənişlər çıxıldıqdan sonra 20 faiz dərəcə ilə gəlir vergisi hesablanır.

Bununla yanaşı, bazarlarda, yarmarkalarda və səyyar qaydada kənd təsərrüfatı məhsullarının satışı həyata keçirildikdə bu malların alıcılarına qəbz və ya digər ciddi hesabat blankı təqdim edilməli və həmin blanklarda qanunvericiliklə müəyyən edilmiş məlumatlar əks olunmalıdır.

***- Kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması necə aparılır?***

- Məlum olduğu kimi, kiçik və orta sahibkarlığın inkişafı, istehlakçıların üzərindəki vergi yükünün azaldılması məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən tədarük qaydasında kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınmış kənd təsərrüfatı məhsulları əhaliyə satılarkən ƏDV həmin məhsulların tam dəyərindən deyil, onların alış və satış qiyməti arasındakı fərq olan ticarət əlavəsindən hesablanılır. Yəni sahibkar 100 manatlıq kənd təsərrüfatı malını istehlakçıya ƏDV-siz 120 manata satdıqda ƏDV-ni 20 manatdan hesablayır. Lakin qanunvericilik bu qaydada ƏDV-nin hesablanması üçün sahibkar tərəfindən həmin malların uçotunun ayrılıqda aparılmasını şərtləndirir. Belə ki, sahibkar həm kənd təsərrüfatı məhsullarının istehsalçısından birbaşa malı alaraq müştəriyə sata bilər, həm də belə malları idxal edərək və ya digər tədarükçü topdansatış fəaliyyəti ilə məşğul olan şəxslərdən alaraq müştərilərə sata bilər. Bu mallar üzrə uçot ayrılıqda aparılmadığı halda bütün məhsulların ümumi dəyərindən ƏDV hesablanmış olacaqdır.

***- Təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları necə müəyyənləşdirilir? Bu cür torpaqlar üzrə torpaq vergisinin dərəcəsi necə müəyyən olunur və bu sahədə vəziyyət necədir?***

- Təyinatı üzrə istifadə edilən və ya istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilən arayışa əsasən müəyyən edilir. Həmin arayışda torpaqların üzrlü və ya üzrsüz səbəbdən istifadə edilməməsi göstərilir. Bu arayışlardakı məlumatlar əsasında həmin torpaqlar üzrə vergilər təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi 1 şərti bal üçün 0,06 manat, qeyd olunan torpaqlar istisna olmaqla təyinatı üzrə istifadə olunmayan kənd təsərrüfatı təyinatlı torpaqların hər 100 kvadratmetrinə görə 2 manat məbləğində müəyyən edilməklə hesablanır.

Məlumat üçün bildirim ki, ölkə başçısının 1 iyun 2016-cı il tarixli 928 nömrəli Fərmanında təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının müəyyən edilməsi meyarlarının və qaydasının dəqiqləşdirilməsi Nazirlər Kabinetinə tapşırılmışdır. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanmış «Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının müəyyən edilməsi meyarları və qaydasının təsdiq edilməsi haqqında» Qərar layihəsinə Vergilər Nazirliyi tərəfindən təkliflər verilmiş, görüşlər keçirilmiş və qarşılıqlı müzakirələr aparılmışdır. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan kənd təsərrüfatı təyinatlı torpaqlar barədə aktual elektron məlumat bazasının formalaşdırılması yekunlaşdıqdan, torpaqlar və onların mülkiyyətçiləri (və ya istifadəçiləri) barədə məlumatlar həmin elektron məlumat bazasına daxil edildikdən sonra vergilərin düzgün hesablanması məqsədilə Vergilər Nazirliyi və bələdiyyələr real vaxt rejimində, məhdudiyyətsiz və fasiləsiz çıxış əldə etmiş olacaqlar.

***- Kənd təsərrüfatının inkişafı, bu sahədə investisiya qoyuluşlarına əlverişli imkanların yaradılması üçün hansı güzəştlər mövcuddur?***

- Məlum olduğu kimi, Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına müvafiq vergi güzəştlərinin verilməsi kənd təsərrüfatının əsaslı şəkildə inkişafını və bu sahəyə investisiya qoyuluşlarının artırılmasını təşviq etmişdir. Deyildiyi kimi, kənd təsərrüfatı məhsullarının istehsalçılarına 1999-cu ildən müvafiq vergilər üzrə güzəştlər tətbiq edilir: vergi qanunvericiliyinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla 2019-cu ilin 1 yanvar tarixinədək Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş mənfəət vergisini, gəlir vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad edilmişdir.

Bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların dövriyyə vəsaitlərinə qənaət edilməsi məqsədilə bəzi malların idxalda ƏDV-dən azad edilməsini nəzərdə tutan maddələr Vergi Məcəlləsinə əlavə edilmişdir. Lakin Məcəllənin 159.10-cu maddəsinə uyğun olaraq ƏDV-dən azad edilən idxal mallarının Azərbaycan Respublikasının ərazisində təqdim edilməsi ümumi qaydada ƏDV-yə cəlb edilir. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlara bu sahədə güzəştlərin verilməsi məqsədilə bəzi malların idxalının ƏDV-dən azad edilməsi ilə yanaşı, onların ölkə daxilində satışı da ƏDV-dən azad edilmişdir. Buraya aiddir: damazlıq heyvanların idxalı və satışı, toxum və tinglərin idxalı və satışı, mineral gübrələrin, pestisidlərin idxalı və satışı, toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı.

Bunlardan əlavə, mövcud qanunvericilik kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şəxslərin də bilavasitə əlaqəli olan fəaliyyət sahəsinə uyğun investisiya təşviqi sənədini almasına və həmin sənəd əsasında müvafiq vergi güzəştlərindən istifadə etməsinə imkan yaratmışdır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2016-cı il yanvarın 1-dən hüquqi şəxslər və fərdi sahibkarlar Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydaya uyğun olaraq verilən investisiya təşviqi sənədi əsasında əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin (mənfəətin) 50 faizi məbləğində gəlir və mənfəət vergilərindən 7 il müddətinə azaddır.

***- Kənd təsərrüfatı məhsullarının satışı prosesində hüquqi şəxslər və fərdi sahibkarlar arasında bağlanmış konsessiya müqaviləsi üzrə yaranan vergi öhdəlikləri necə müəyyən edilir?***

- Son zamanlar qanunvericiliyin tətbiqi barədə daxil olan sorğuların əksəriyyətinin təhlili zamanı məlum olmuşdur ki, fərdi sahibkarların hüquqi şəxslərin istehsal etdiyi malları konsessiya müqaviləsi üzrə təqdim etməsi əməliyyatı malların agent tərəfindən təqdim edilməsi əməliyyatı ilə qarışıq salınır.

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 808.1-ci maddəsinə əsasən komissiya müqaviləsinə görə bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə muzd müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür.

Vergi qanunvericiliyinə əsasən komissiyaya qəbul edilmiş mallar «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir və həmin sənədlərdə göstərilən qiymətlərlə uçota alınırlar. Malların komissiyaya qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanır. Elektron qaimə-faktura hüquqi şəxslərə və fərdi sahibkarlara malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxslər tərəfindən təqdim edilir. Malların komissiyaya verilməsi malların təqdim edilməsi hesab edilmədiyindən komitent tərəfindən komisyonçuya verilmiş mallara görə elektron qaimə-faktura təqdim edilmir.

Vergi Məcəlləsinin 172.4.4-cü maddəsində göstərilmişdir ki, agent üçün vergitutma bazası onun digər şəxslərə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə göstərdiyi xidmətlərin dəyəri, vergi tutulan əməliyyatların vaxtı bu xidmətlərin faktiki göstərildiyi vaxt, vergi tutulan əməliyyatların dəyəri isə onun digər şəxsdən almalı olduğu (aldığı) haqdır (mükafatdır).

Mülki Məcəllənin 800-cü maddəsinin müddəalarına əsasən konsessiya müqaviləsi üzrə konsessioner kontrakt mallarını müəyyən ərazilərdə və (və ya) müəyyən müştərilərə (müqavilə ərazisi və müqavilə müştəriləri) satmağı öhdəsinə götürür. Mallar barəsində tapşıran konsessionerə müstəsna satış hüququ (inhisar hüququ) verir, konsessioner isə tapşıranın mallarının onun nəzarəti altında satışına qarantiya verməlidir.

Göründüyü kimi, tərəflər arasında qanunvericiliklə müəyyən olunmuş qaydada bağlanmış komissiya müqavilələri əsasında malların təqdim edilməsi agent vasitəsilə həyata keçirilə bilər. Bu zaman malların satışını komissiya müqaviləsi əsasında həyata keçirən agent üçün vergi tutulan əməliyyatın dəyəri satış üzrə xidmətlərin göstərilməsinə görə ona ödənilən haqdır (mükafatdır).

Konsessiya müqaviləsi əsasında alınmış malların satışından əldə olunan gəlirlər isə tam məbləğdə fərdi sahibkarın vergi tutulan gəlirlərinə (ümumi hasilata) aid edilməli və müvafiq vergilərin hesablanıb dövlət büdcəsinə ödənilməsi təmin edilməlidir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**




## sınaqdan uğurla çıxır

Ötən ilin avqust ayından Azərbaycan iqtisadiyyatında tətbiq olunan «Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün «Yaşıl dəhliz» sistemi qeyri-neft ixracının artmasında və tranzit imkanlarının yaxşılaşmasında mühüm rol oynayıb. İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, artıq bir ildir tətbiq olunan «Yaşıl dəhliz» ixrac-idxal əməliyyatları zamanı elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsində şəffaflığın təmin edilməsi baxımından özünü doğruldub. «Yaşıl dəhliz» sisteminin tətbiqi gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsinə, məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişafına imkan verməklə qeyri-neft ixracının artmasına, xarici ticarətin coğrafiyasının genişlənməsinə, Azərbaycan məhsullarının yeni bazarlara çıxarılmasına imkanlar yaradır.

«Açıq hökumət» prinsiplərinə uyğun olan «Yaşıl dəhliz» sistemi məmur-sahibkar münasibətlərini rəqəmsallaşdırır.

Qarşıda duran ümdə vəzifələrdən biri ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu baxımdan, ixracın və yükdaşımaların artmasına təsir göstərən mühüm amillərdən biri Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının rolu da müsbət dəyərləndirir. Şura tərəfindən ölkəmizin ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilir. Şura tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi üçün sahibkarlıq fəaliyyətinə əlverişli şərait yaradır. Son bir ildə şura tərəfindən iri tonnajlı yük avtomobillərinin keçid prosedurları sadələşdirilib, gediş-gəliş xərcləri 40%-dən aşağı salınıb. Bunun nəticəsində 2017-ci ilin yanvar-iyul aylarında ölkəmizin ərazisindən 16 mindən artıq yük avtomobili keçib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 1,5 dəfə çoxdur. Yük daşınmaları və ixracın stimullaşdırılması və təşviqi ilə əlaqədar görülən işlər Azərbaycan ərazisinin tranzit məkanı kimi cəlbediciliyini artırır. Bu sahədə görülmüş işlər nəticəsində 2017-ci ilin ötən 7 ayı ərzində ölkə ərazisindən təxminən 6 milyon ton tranzit yükü daşınıb. Yüklərin 1,2 milyon tonu (22%) qeyri-neft məhsullarının payına düşür. Son bir ildə həm ölkəmizə məxsus, həm də xarici dövlətlərə aid qeyri-neft məhsullarının ixracı çoxalmaqdadır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracında 36% artım olub.

**E.CƏFƏRLİ**

## «AtaBank» «UnionPay International» şirkəti ilə tərəfdaşlıq müqaviləsi imzalayıb

Avqustun 28-də «AtaBank» ASC dünyanın aparıcı ödəniş sistemlərindən biri olan «UnionPay International Co.» MMC ilə tərəfdaşlıq müqaviləsi imzalayıb. AZƏRTAC xəbər verir ki, müqaviləni «Atabank»ın idarə heyətinin sədri Dəyanət Quliyev, «Unionpay International Co.»nun biznesin inkişafı üzrə baş direktoru Vanq Lixin imzalayıblar. Məqsəd hər iki qurum arasında ticarətin inkişafının stimullaşdırılmasıdır.

Dəyanət Quliyev bildirib ki, tərəfdaşlıq çərçivəsində bankın bankomat və POS-terminallarında emissiya etdiyi kartların sayına görə dünya lideri olan «UnionPay International» kartları ilə əməliyyatlar aparmaq mümkün olacaq.

«UnionPay International Co.» MMC-nin idarə heyətinin sədri Ge Huayong deyib ki, 2002-ci ilin martında Çin Dövlət Şurası və Çin Xalq Bankı tərəfindən təsis edilmiş «UnionPay International» şirkəti emissiya etdiyi kartların sayına görə və kartlar üzrə tranzaksiyaların həcminə görə liderdir. «UnionPay» dünyanın 162 ölkəsində xidmət göstərir. Kartların ümumi sayı 5 milyarddan artıqdır. Bunlardan 70 milyonu Çin sərhədlərindən kənarda, dünyanın 40 ölkəsində emissiya olunub.

Qeyd edək ki, 1993-cü ildən fəaliyyət göstərən «AtaBank» ASC 100 faiz yerli kapitallı, yüksək texnologiyalı universal Azərbaycan bankıdır. Bakıda və ölkənin müxtəlif regionlarında bankın 31 filial və şöbəsi fəaliyyət göstərir. Bank korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### Gəlirlərin vergiyə cəlb olunması

***Kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınmış məhsulların, habelə qurudulmuş meyvələrin satışından əldə olunmuş gəlirlər vergiyə hansı qaydada cəlb olunur?***

Vergi Məcəlləsinin (VM) 13.2.60-cı maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalına - sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və sair) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi aiddir.

Kənd təsərrüfatı məhsullarının satışı dedikdə istehsal olunan (o cümlədən sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə) canlılar diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsullar ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan, bitkiçilik məhsulları və digər kənd təsərrüfatı məhsulları isə təbiətdə olduğu ilkin formasını saxlamalı, kimyəvi tərkibi dəyişdirilmədən və konservləşdirilmədən təqdim edilməsi nəzərdə tutulur (VM, maddə 13.2.61).

**Qeyd olunanlara əsasən:**

Kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınmış məhsulların, habelə qurudulmuş meyvələrin digər şəxslərə satışı kənd təsərrüfatı məhsullarının istehsalına aid edilmədiyindən həmin məhsulların satışından əldə olunan gəlirlərdən (hasilatdan) vergi ödəyicisi tərəfindən seçilən vergitutma metodundan (gəlir vergisi və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergilər hesablanıb dövlət büdcəsinə ödənilir.

# Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində

## *Bu mərhələdə neftdən asılılığın azaldılması əsas hədəflərdəndir*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-2018-ci illərin qeyri-neft sektoru üçün çox fəal inkişaf dövrü olacağını bəyan edib: «Dövlət və özəl sərmayələr artıq planlaşdırılıb. Əlbəttə, infrastruktur layihələri prioritet olacaq. Həmçinin maraqlı olduğumuz sahələrə xarici sərmayələri gözləyirik. Dəfələrlə qeyd etdiyim kimi, biz artıq neftdən sonrakı dövrə qədəm qoymuşuq. Demək olmaz ki, neft və qaz erası bitib. Sadəcə, biz bu faktoru kənara qoymalıyıq və öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki bizdə neft və qaz yoxdur».




Ötən ilin sənaye, cari ilin kənd təsərrüfatı ili elan etməsi, sahibkarlığın inkişafına dövlət dəstəyinin artması və bunların nəticəsi olaraq yerlərdə sənaye məhəllələrinin yaradılması, aqroparkların qurulması, qeyri-neft sektorundan ixracın həcminin böyük sürətlə çoxalması ölkəmizdə iqtisadi inkişafın qarşıdakı dövrdə daha intensiv xarakter alacağından xəbər verir. İqtisadi göstəricilər vəziyyətin müsbət tendensiyalarla müşayiət olunduğundan xəbər verir.

Bu ilin yanvar-iyul aylarında 37 milyard 645,4 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən iqtisadiyyatın qeyri-neft bölməsində istehsal olunmuş əlavə dəyər 2,2 faiz artmışdır. ÜDM-in 41,1 faizi sənayedə, 10,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində, 8,9 faizi tikintidə, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrində, 15,6 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 3.875,6 manat olmuşdur.

2017-ci ilin birinci yarısında qeyri-neft sənayesində məhsul istehsalı 4,4 faiz, kənd təsərrüfatı 2,2 faiz, ümumilikdə ixrac 36 faiz, o cümlədən qeyri-neft ixracı 27 faiz artmış, müsbət saldo 1,9 milyard ABŞ dolları təşkil etmişdir. Bu dövrdə ölkə iqtisadiyyatına 5 milyard ABŞ dolları həcmində investisiya yatırılmış, valyuta ehtiyatlarımız artaraq 40,6 milyard ABŞ dolları olmuşdur.

2017-ci ilin yanvar-iyul aylarında ölkədə 21,8 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 4,6 faiz artmışdır.

Emal sektorunda qida məhsullarının istehsalı 2,3 faiz, içkilərin istehsalı 30 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 98,5 faiz, geyim istehsalı 49 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 83,3 faiz, kağız və karton istehsalı 0,7 faiz, kimya sənayesi məhsullarının istehsalı 20,3 faiz, əczaçılıq məhsullarının istehsalı 2,2 dəfə, rezin və plastik kütlə məmulatlarının istehsalı 57,3 faiz, tikinti materiallarının istehsalı 38,3 faiz, kompüter və elektron məhsulların istehsalı 57,6 faiz, elektrik avadanlıqlarının istehsalı 69 faiz, maşın və avadanlıqların istehsalı 19,1 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 19,3 faiz, mebel istehsalı 26,1 faiz artmışdır.

Dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənayenin inkişafına yeni təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parkları və sənaye zonalarının yaradılması davam etdirilir. Artıq ölkəmizdə Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir və Pirallahı sənaye parkları yaradılıb. Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiyalarının həcmi 1,2 milyard dollar təşkil edən 10 müəssisəyə rezident statusu verilib. 2013-cü ildə fəaliyyətə başlamış və 760 nəfərdən çox işçinin çalışdığı «Azertexnolayn» zavodunda təkcə bu ilin 6 ayı ərzində 65 milyon manatlıq məhsul istehsal olunub. Sənaye parkında bu il daha 5 müəssisə, 2018-ci ildə isə 3 müəssisə fəaliyyətə başlayacaq. Bu müəssisələrdə 900-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

**Rəşad SADIQOV**

# Birgə istehsal sahələrinin yaradılması üzrə layihə təklifləri hazırlanıb

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan bildiriblər ki, müasir texnoloji proseslərin tətbiqi və əsas neft avadanlıqlarına «ANİ» monoqramının alınması yönümlü investisiya layihəsinin məqsədi respublikada maşınqayırma sənayesini inkişaf etdirmək, daxili və xarici bazarı yüksək keyfiyyətli neft maşınları ilə təmin etmək, ölkənin ixracat qabiliyyətini daha da artırmaq və sənayedə mühüm rol oynayan maşınqayırma sənayesini stimullaşdırmaqdır. Beş il müddətində həyata keçiriləcək layihənin dəyəri 12 milyon manatdır. Bu investisiya layihəsi B.Sərdarov adına maşınqayırma zavodunda istehsal sahələrinin təmiri, müasir avadanlıqların alınması və əsas məhsullara Amerika Neft İnstitutunun monoqramını almaqla istehsal olunan məhsulun keyfiyyətinin və zavodun rəqabətqabiliyyətinin artırılması məqsədini daşıyır.

Zirə qəsəbəsində neft-qaz avadanlıqları və dəniz təyinatlı iriqabaritli metal konstruksiyaların istehsalı üçün zavodun tikintisi və istismara verilməsi layihəsinin məqsədi yeni istehsal sahəsinin yaradılmasıdır. «ADO-G İnşaat, Təchizat və Quraşdırma» MMC-nin rəhbərliyi bu investisiya layihəsi çərçivəsində mütərəqqi texnologiyaların tətbiqi ilə neft-qaz avadanlıqlarının və dəniz təyinatlı iriqabaritli metal konstruksiyaların dünya standartlarına uyğun istehsalının qurulmasını, istehsal etdiyi əsas məhsullara Amerika Neft İnstitutunun monoqramının və premium boru yivlərinə VAM şirkətinin lisenziyasının alınmasını planlaşdırır. Təqdim olunan layihənin investiya dövrü araşdırmaların aparılması, tikinti-təchizat, fəaliyyətin təşkili üçün zəruri olan bütün hazırlıq və sənədləşdirmə işlərinin aparılmasını nəzərdə tutur və 3 il ərzində tam başa çatması planlaşdırılır. Layihə çərçivəsində daxili yollar, platforma və binalar nəzərə alınmaqla, ümumi sahəsi 127 min 920 kvadratmetr olan zavodun tikilməsi və istismara verilməsi nəzərdə tutulur. On il müddətinə həyata keçiriləcək layihənin dəyəri 25 milyon 903 min 254,9 ABŞ dollarıdır.

Binəqədi qəsəbəsində maşınqayırma və dəzgahqayırma üzrə ixtisaslaşdırılan, yeni texnologiyaların tətbiqi ilə istehsal sahəsinin yaradılması və istismara verilməsi layihəsi qəsəbədə maşınqayırma və dəzgahqayırma sahəsində ixtisaslaşmış istehsal sahəsinin uzunmüddətli icarəyə götürülməsi, yeni müasir texnologiyaların tətbiqi ilə bütövlüklə rekonstruksiyası və istismara verilməsini nəzərdə tutur. B.Sərdarov adına maşınqayırma zavodunun rəhbərliyi bu investisiya layihəsi çərçivəsində zavodun sex və sahələrin təmirini, yeni avadanlıqların təchizini və istehsal etdiyi əsas məhsullara Amerika Neft İnstitutunun monoqramının alınmasını planlaşdırır. Şirkət zavodda beynəlxalq standartlara uyğun istehsalının qurulmasını, məhsul istehsalı, idarəetmə və keyfiyyətə nəzarət sisteminin tətbiqini planlaşdırır. Bu məqsədlə, beynəlxalq aləmdə tanınmış sertifikasiya sistemi əsasında müvafiq sertifikat və lisenziyaların alınması tədbirlərini həyata keçirəcək.

Layihənin birinci ili hazırlıq və investisiya qoyuluşu imkanlarının, layihənin həyat qabiliyyətliliyinin, ərazi seçimi, ərazinin alışı və sair sənədləşmə danışıqlarının dövrü olub tikinti üçün ərazinin hazırlanması prosesini də özündə cəmləşdirir. Layihənin 2-ci ildəki fəaliyyəti dövründə əlavə olaraq kredit vəsaitlərinin cəlb olunması tələbatı var. Belə ki, «ADO G» MMC istehsal sahəsinin əsas tikinti xərclərini öz vəsaitləri hesabına bu dövrdə etdiyindən, əlavə olaraq tələb olunan avadanlıq və qurğuların sifarişi, hazırlanması, təchizatı və montajı üçün sərbəst vəsaitlərin olmadığından kredit vəsaitlərinin cəlb olunmasını planlaşdırır.

Təchizatçılarla aparılan danışıqlar əsasında təchizat və quraşdırma işləri, ən az 14 aylıq dövrü əhatə edəcək. Layihənin 3-cü ili istehsalın tam olaraq işə başlaması üçün bütün işlərin tamamlanması, sınaq təcrübə, təlimatlandırma, reklam və prezentasiya tədbirlərini əhatə edir. Layihə 10 il müddətinə həyata keçiriləcək.

# Sahibkarlığın təşviqi üçün azad biznes mühiti əsas şərtdir

Sahibkarlığa dövlətin dəstəyinin artırılması, bəzi sahələr istisna olmaqla yoxlamaların dayandırılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi və güzəştli kreditlərin verilməsi qaydalarının asanlaşdırılması biznesin fəallığının yüksəlməsinə səbəb olur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin həm sayı artır, həm də mövcud sahibkarlıq subyektləri öz istehsal və xidmət sahələrini genişləndirirlər. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən, 2017-ci ilin birinci yarısında ölkədə sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərin sayı əvvəlki ilin müvafiq dövrü ilə nisbətdə 12%-dən çox artıb. Hazırda ölkəmizdə 790 mindən çox insan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

***Fərdi sahibkarlar iqtisadiyyata töhfə verir***

Hazırda iqtisadi fəaliyyətlə məşğul olan sahibkarların böyük bir hissəsi fərdi sahibkarlardır, onların sayı 700 minə yaxındır. Son bir il əzində fərdi sahibkarların sayında 100 minə yaxın artım olub. İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, 2013-cü ildə onların sayı 454.997, 2014-cü ildə 519.860, 2015-ci ildə 576.900, 2016-cı ildə 680.000 olub. Fərdi sahibkarların böyük hissəsi ticarət, iaşə, xidmət, nəqliyyat vasitələrinin təmiri və kənd təsərrüfatı, meşə sənayesi, turizm sahələrində çalışır. Fərdi sahibkarların daha az işlədiyi sahə isə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsidir.

Fərdi sahibkarların əsas hissəsi regionlarda fəaliyyət göstərir. Ölkə üzrə fərdi sahibkarların 70%-i regionları, 30%-i isə Bakı şəhərini təmsil edir. Regionlar üzrə bölgü aparıldıqda isə fərdi sahibkarların əsas hissəsi Aran (18%), Gəncə-Qazax (15,1%), Quba-Xaçmaz (14,5%), Şəki-Zaqatala (13%) Lənkəran (9%) və digər iqtisadi rayonlarda cəmləşib. Fərdi sahibkarların böyük əksəriyyətini (79,12 faizini) kişilər təşkil edir. Ölkəmizdə fərdi sahibkarların 560 mini kişi, 140 mini isə qadınlardır.

***Səmərəli vergi rejimi sahibkarlığı stimullaşdırır***

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər sahibkarlıq subyektlərinin sayının artmasına öz təsirini göstərib. Vergilər Nazirliyinin məlumatına görə, 2017-ci ilin yanvar-iyun ayları ərzində qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 103.968 olub ki, bu da ötən ilin müvafiq dövründəki göstəricidən 2 dəfə çoxdur. Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, biznesə başlama prosedurlarının əsaslı şəkildə sadələşdirilməsi, vergi güzəşt və azadolmaların tətbiqi, sahibkarlığın və ixracın təşviqi, vergi yükünün aşağı salınması yeni sahibkarlıq subyektlərinin yaradılmasına və fəaliyyətini dayandırmış müəssisələrin bərpasına imkan yaradıb.




**2017-ci ilin birinci yarısında ölkədə sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərin sayı əvvəlki ilin müvafiq dövrü ilə nisbətdə 12%-dən çox artıb**

Vergilər Nazirliyi tərəfindən hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi də biznes mühitinə müsbət təsir göstərib. Fiziki şəxslərin vergi uçotu və hüquqi şəxslərin dövlət qeydiyyatının Vergilər Nazirliyi tərəfindən elektron qaydada aparılması vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırır. Sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində mühüm yeniliklərdən biri olan «e-qeydiyyat» sisteminin tətbiqi hüquqi şəxslərə və fərdi sahibkarlara vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanma imkanı yaradır. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan 3 məcburi prosedurdan keçmək zərurəti tamamilə aradan qaldırılıb, ümumilikdə qeydiyyatın aparılmasına sərf edilən müddət 1 günədək azalıb. Ölkədə biznesə başlama ilə bağlı prosedurlar 15-dən 2-yə, sərf olunan vaxt isə 30 gündən 2 günə endirilib. Fərdi sahibkarlar 2011-ci ildən, yerli investisiyalı müəssisələr isə 2012-ci ildən etibarən elektron qaydada qeydiyyata alınır.

***ASAN lisenziyalaşdırma biznes mühitinə dinamiklik gətirir***

İqtisadiyyat Nazirliyinin məlumatına görə, sahibkarlıq fəaliyyətinə başlama ilə bağlı prosedurların sadələşdirilməsi və lisenziyaların verilməsinin asanlaşdırılması sahibkarlığın stimullaşdırılmasında mühüm rol oynayır. Ötən ildən fəaliyyətə başlayan «Elektron lisenziya» portalının istifadəyə verilməsi lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılmasına və şəffaflığın artırılmasına imkan verib. Vətəndaşlar sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədləri portaldan və «ASAN xidmət»dən həm qısa zaman ərzində, həm də az xərc çəkməklə əldə edirlər.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, 2015-ci ilin noyabr ayından bu günə qədər sahibkarlıq subyektlərinə 4300-dən çox lisenziya verilib. Bunların 2500-ü yeni, 1871-i isə müddətsiz lisenziya ilə əvəz edilən lisenziyalardır. 2017-ci ilin əvvəlindən 683-ü yeni, 283-ü isə müddətsiz lisenziya ilə əvəz edilməklə 966 lisenziya verilib. Lisenziyalar əsasən əczaçılıq, özəl tibb, tikinti-quraşdırma işləri, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi, baytarlıq preparatlarının satışı, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması, yanğından mühafizə, qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri, təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması, təhsil və s. fəaliyyət sahələrinə verilib.

***Sahibkarlıq sahəsində islahatlar müsbət qiymətləndirilir***

«Moody's» beynəlxalq reytinq agentliyi son hesabatında Azərbaycanın biznes mühitinin yaxşılaşmasına, azad sahibkarlığın inkişafına diqqət çəkib. Qeyd olunub ki, iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı yürüdülən siyasət özəl şirkətlərin, maliyyə-kredit təşkilatlarının, investorların inamını artırıb və onların fəaliyyətində canlanma nəzərə çarpır. Təşkilat hesab edir ki, son illər Azərbaycanda sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılıb, bürokratik əngəllərə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verilməsinin qarşısı alınıb, bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. Ölkədə azad biznesin inkişafına təkan verən vergi, fiskal, gömrük siyasəti təkmilləşdirilib, ixrac qaydaları liberallaşıb. Biznes mühitinin yaxşılaşması isə son nəticədə sahibkarlığa daha əlverişli fəaliyyət meydanı açır.

**Elbrus CƏFƏRLİ**

# Aqroparkların perspektivləri böyükdür

**Qeyri-neft sektorunun inkişafında müasir innovativ layihələr sırasında aqroparklar özünü doğruldur və faydalılıq baxımından böyük gələcək vəd edir. Azərbaycan uzun müddət bu modelin tətbiqi ilə bağlı dünya təcrübəsini öyrəndikdən sonra Şəmkir, Xaçmaz və Xızı rayonlarında ilk aqroparklar yaradılıb, Yalama aqroparkında işlərin birinci mərhələsi yekunlaşıb, digər rayonlarda da bu cür iqtisadi modelin tətbiqi üzrə layihələndirmə işləri aparılır. Hazırda 24 rayonda 33 aqropark yaradılır və bu sahəyə 1,1 milyard manat sərmayə qoyulur. Həmin aqroparkların yerləşdiyi ərazi, istifadə etdiyi torpaq sahəsi 142 min hektardır. Aqroparkların fəaliyyətə başlaması nəticəsində daxili tələbatın 100 faiz ödəniləcəyi və böyük ixrac potensialının yaranacağı gözlənilir.**

### Aqropark modeli kənd təsərrüfatının təşkilini optimallaşdırır

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun rəhbəri Vilayət Vəliyev bildirib ki, bu gün dünya ölkələrinin əksəriyyəti kənd təsərrüfatı, heyvandarlıq, biotexnologiya kimi sektorları aqroparklar şəklində birləşdirərək müasir innovativ üsulların tətbiqini genişləndirir. Aqropark kompleksi innovativ və müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika (saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış) təşkilini nəzərdə tutur. Aqroparklarda istehsalçı və kənd təsərrüfatı emal, digər sahələr üzrə işçilər kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün birgə əməkdaşlıq edirlər. Hazırda aqropark modeli altında fərqli sektorlar, kollektiv təsərrüfatlar, iri fermer birlikləri xərcləri optimallaşdırmaqla daha çox gəlir əldə etmək üçün bir araya gəlməkdədir. Burada enerji, su təchizatı, tullantıların utilizasiyası, daşınma, logistika və planlaşdırma və digər fəaliyyət sahələri bir-birinə sıx bağlı olur. Bundan əlavə, aqroparklar, yalnız kənd təsərrüfatı müəssisələrinin deyil, əkinçiliklə bağlı sektorlarda çalışan firmaların da birləşdiyi yerlərdir. Meyvə və tərəvəz istehsalı ilə yanaşı, çiçək istehsalı, heyvandarlıq, balıqçılıq, quşçuluq, mayalanmış məhsullar, ətir, funksional molekullar, dərmanlar və liflərin istehsalı da nəzərdə tutulur. Aqroparklar bir liman yanındakı çoxmərtəbəli binalardan yaşıl sənaye sahələrindəki çoxfunksiyalı parklara qədər bir çox zonaları əhatə edə bilir. Bu baxımdan Azərbaycanda tətbiq olunan bu modelin uğurlu olacağını və iqtisadiyyata töhfə verəcəyini söyləmək mümkündür.

**Hazırda aqropark modeli altında fərqli sektorlar, kollektiv təsərrüfatlar, iri fermer birlikləri xərcləri optimallaşdırmaqla daha çox gəlir əldə etmək üçün bir araya gəlməkdədir**



### Uğurlu başlanğıc yeni üfüqlər açır

Ölkəmizdə ilk aqroparkın təməli 2014-cü il noyabrın 15-də Şəmkir şəhərində qoyulub. «Şəmkir Aqropark» kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və marketinqi ilə əlaqədar fəaliyyətlərin vahid istehsal məkanında, bir ərazidə kombinə olunmuş təsərrüfatçılıq subyektidir. Aqroparkda müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələrinin inşa olunması nəzərdə tutulub. «Şəmkir Aqropark»ın digər üstünlüyü burada fəaliyyət göstərən emal müəssisələrinin əhalinin yetişdirdiyi kənd təsərrüfatı məhsullarını almasıdır. Aqroparkın su təhcizatını təmin etmək məqsədilə Şəmkir çayı üzərində dəryaçanın inşası region üçün mühüm əhəmiyyətə malikdir.

Aqroparkda fəaliyyət göstərən sahibkarlıq subyektləri orada istifadəyə veriləcək Aqroaptekin, İnnovasiyalar və Texnologiyalar Mərkəzinin, Logistik Mərkəzin xidmətlərindən istifadə edə biləcəklər. Bundan başqa, aqroparkda istehsal edilən məhsulların xarici bazarlara çıxışını təmin etmək üçün lazım olan beynəlxalq sertifikatların alınması xidməti təklif ediləcək. Şəmkir rayonunun əlverişli zonada yerləşməsi məhsulların xarici bazara çıxarılmasına imkan yaradır.




Xaçmaz rayonunun Yalama qəsəbəsində yaradılan «Yalama Aqroparkı» da mühüm əhəmiyyətə malikdir. Burada işlər yekunlaşmaq üzrədir. Aqroparkda 225 hektar ərazidə dənlik, 160 hektar ərazidə isə silosluq qarğıdalı səpini həyata keçirilib. «Yalama Aqropark»da istehsal və emal müəssisələrinin yaradılması üçün xarici ölkələrdən, o cümlədən ABŞ, İsveç, İtaliya, Hollandiya və Türkiyə istehsalı olan avadanlıqlardan istifadə olunur. Aqroparkın ərazisində saatda 5 ton yem istehsal edən zavod tikilir. Burada həmçinin müasir texnologiyanın tətbiqi ilə cins iribuynuzlu heyvandarlıq kompleksinin, süd emalı, istixana kompleksi və intensiv bağçılıq təsərrüfatının yaradılması planlaşdırılır. Samur-Abşeron kanalından 3,2 kilometr uzunluğunda beton suvarma kanalı çəkilib və tutumu 50 min kubmetr olan hovuz tikilib.

**Hazırda 20-dən artıq rayonda aqroparkların inşası ilə bağlı qiymətləndirmə işləri aparılır**

Abşeron rayonu ərazisində yerləşən «Abşeron Aqropark» kompleksi və Xızı rayonunda tikilən aqroparklar da ərazisinə və infrastruktur təminatına, müasir texnologiyaların tətbiqinə görə uğurlu layihələr hesab olunur. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan bu təsisatlar kənd təsəsrrüfatı məhsullarının ixracında mühüm rol oynayacaq.

### Aqroparklar daxili bazarda qiymət sabitliyi yaradacaq

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, dövlət başçısının qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq ölkəmizdə aqroparkların yaradılması prosesi sürətlənib. Aqroparklar aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Hazırda 20-dən artıq rayonda aqroparkların inşası ilə bağlı qiymətləndirmə işləri aparılır. Bu konsepsiyanın gerçəkləşməsi ölkənin ixrac potensialının artırılmasında və coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermerlərin innovativ qabiliyyətinin artırılmasında, intensiv metodların geniş tətbiqində, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətlərinin formalaşmasında, yüksək məhsuldarlığın əldə olunmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq.

Kənd təsərrüfatı üzrə mütəxəssis İmran Çümşüdov hesab edir ki, aqropark kənd təsərrüfatı məhsulunun intensiv istehsalı, daşınması, saxlanması və satışının təşkilində mühüm rol oynayır. Kənd təsərrüfatı məhsulu tez xarab olduğundan realizasiya prosesi sürətli olmalıdır. Lakin əksər hallarda məhsulu vaxtında satmaq mümkün olmur və o, yararsız vəziyyətə düşərək zərər gətirir. Aqroparkların fəaliyyəti sayəsində fermer istehsal etdiyi məhsulu heç bir itki vermədən birbaşa istehsalçıya çatdıracaq Daxili bazarda da təminat yaxşılaşacaq. Daxili istehsal tələbatı ödəməyəndə idxal məhsullarına üstünlük verilir, xarici məhsulların çoxu isə GDO - geni dəyişdirilmiş məhsullardır. Bu baxımdan istehsal, emal və logistika xidmətlərini vahid ərazidə cəmləşdirən aqroparkların yaradılmasının ölkə iqtisadiyyatı üçün perspektivləri böyükdür. Mütəxəssis hesab edir ki, aqroparkların yaradılması ərzaq bolluğuna və qış aylarında meyvə-tərəvəzlə tələbatın təmin olunmasına öz töhfəsini verəcək.

**E.CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Əmanətlərin Sığortalanması Fondu tərəfindən ləğv prosesində olan 11 bank üzrə 747 milyon 832 min manatdan çox kompensasiya ödənilib.

«Şahdəniz» qaz-kondensat yatağından hasilat bərpa olunub.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib ki, Azərbaycan Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və kartelə üzv olmayan ölkələr arasında neft hasilatının azaldılmasına dair Vyana sazişi üzrə öz üzərinə götürdüyü öhdəliyə əməl olunmasını davam etmək niyyətindədir.

Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üçün Azərbaycana 500 milyon dollar kredit ayrılması üzrə layihənin yekun icmalını başa çatdırıb.

Türkiyənin təbii qaz idxalında Azərbaycanın payı 15,93 faizə çatıb.

Çində 40 ölkədən olan sahibkarlara Bakı limanının gələcək perspektivləri barədə məlumat verilib.

Azərbaycan şərablarının xarici ölkələrə, o cümlədən Çinə ixrac olunması ilə bağlı müzakirələr aparılır.

Bu ilin yanvar-iyul aylarında İstanbula səyahət edən azərbaycanlı turistlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz artaraq 115.010-a çatıb.

# Torpaqların icarəyə və istifadəyə verilməsi razılaşdırılmalıdır

**Torpaq münasibətlərinin tənzimlənməsi və inzibatçılığı, habelə torpaqlardan istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti tədbirlərinin gücləndirilməsi, torpaq bazarının təşkili ilə bağlı genişmiqyaslı işlər həyata keçirilir.**

Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) açıqlamasında bildirilir ki, qanunçuluğa əsasən, dövlət torpaqlarının icarəyə və istifadəyə verilməsi zamanı Komitənin rəyi alınmalıdır: «Yerli icra hakimiyyəti orqanı tərəfindən hüquqi və fiziki şəxslərə dövlət torpaqlarının icarəyə və ya istifadəyə ayrılması barədə qərar qəbul edilənədək və torpaq icarə müqaviləsi bağlananadək ayrılması nəzərdə tutulan torpaq sahəsi ilə bağlı Azərbaycan Respublikasının torpaq qanunvericiliyinin tələblərinə müvafiq olaraq yerquruluşu işləri aparılmalı və torpaq ayrılmasına dair rəy alınmalıdır.

Torpaq Məcəlləsinin 65-ci maddəsinə əsasən torpaq sahəsinin istifadəyə və ya icarəyə verilməsi barədə müvafiq qərar qəbul edildikdən sonra həmin sahənin sərhədləri yerdə (naturada) yerquruluşu qaydasında müəyyən edilir. «Torpaq icarəsi haqqında» Qanunun 9-cu maddəsinə görə isə yerquruluşu layihələri əsasında torpaq sahələrinin ayrılması nəzərdə tutulur. Torpaqla bağlı yerquruluşu işləri Komitənin müvafiq qurumları tərəfindən həyata keçirilir».

Qeyd edilmişdir ki, yer quruluşu işlərinin aparılmasının əsas səbəbi ayrılan torpağın sahəsinin, yerinin, sərhədlərinin və konfiqurasiyasının xəritə üzərində göstəriciləri ilə faktiki vəziyyəti arasında uyğunlaşmanın təmin edilməsidir.

**Vətəndaşlar bilməlidirlər ki, Əmlak Məsələləri Dövlət Komitəsinin rəyi olmadan ayrılan torpaq sahələri qanunsuz hesab edilir və burada tikinti aparmaq qeyri-leqaldır**

Bu isə ayrılan torpaqların ərazisinin eyni sahəyə düşməsinin qarşısnı alır: «Ümumilikdə bu işlərin həyata keçirilməsi vətəndaş və dövlətin maraqlarının qorunmasına istiqamətlənib. Vətəndaş qeydiyyatla bağlı maneələrlə qarşılaşmayacaq, torpağı düzgün istifadə edə biləcək. Bu, həm də gələcəkdə dövlət ehtiyacları üçün torpaqların geri alınmasında çətinlikləri aradan qaldırır, əlavə xərclərin yaranmasının qarşısını alır.

Rəylərin verilməsində başlıca məqsəd torpağın təyinatından irəli gələn məsələlərin aydınlaşdırılması, torpaqların hansı kateqoriyaya aid olmasının araşdırılması, torpaqların mühafizə zolaqlarında yerləşib yerləşməməsinin müəyyənləşdirilməsidir. Rəy verilərkən torpaqların yüksək gərginlikli elektrik xətləri, avtomobil və dəmir yolları mühafizə zolaqlarında, magistral neft, qaz, su boru kəmərləri üzərində yerləşməsi aşkara çıxarılır. Bundan başqa, rəylərin verilməsi torpağın şəhərsalma planlarına uyğun gəlib gəlməməsini müəyyənləşdirir».

Komitənin açıqlamasında qeyd edilmişdir ki, torpaq sahələrinin qanunvericiliyin tələbləri pozulmaqla, ƏMDK-nin rəyi olmadan verilməsi sonradan sənədləşmə prosesində çətinlik yaradır: «Vətəndaşlar bilməyərəkdən ayrılmaya dair rəy alınmayan torpaqlarda qanunsuz tikinti aparır. Daha sonra müvafiq qeydiyyat prosedurunu yerinə yetirəndə isə ilkin hüquqi sənədlərin çatışmazlığı problemi ilə üzləşir.

Həmçinin belə qaydada torpaq sahələrinin ayrılması ölkədə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması ilə bağlı görülən işlərə ciddi maneələr yaradır».

Vətəndaşlar bilməlidirlər ki, Əmlak Məsələləri Dövlət Komitəsinin rəyi olmadan ayrılan torpaq sahələri qanunsuz hesab edilir və burada tikinti aparmaq qeyri-leqaldır. Qanunvericilik çərçivəsində ayrılan torpaq sahələrinə sonradan vətəndaş rahatlıqla mülkiyyət hüququ əldə edə bilər.

Torpaq qanunvericiliyinin tələblərinin pozulmasına qarşı həyata keçirilən inzibati tədbirlərlə yanaşı, yerli icra hakimiyyətləri, bələdiyyələr, fiziki və hüquqi şəxslərlə, eləcə də əhalinin geniş təbəqəsi ilə maarifləndirmə və izahat işləri aparılır. Bu istiqamətdə vətəndaşların, bələdiyyələrin, müvafq icra hakimiyyəti orqanlarının məlumatlandırılması üçün torpaqlardan istifadə və onun mühafizəsi ilə bağlı maarifləndirici forumlar təşkil edilir. Belə forumlar mütəmadi olaraq Bakı və bölgələrdə təşkil olunur. Keçirilən maarifləndirici forumların məqsədi torpaqlardan istifadədə mülkiyyətçilərin, dövlətin və vətəndaşların hüquqlarının daha səmərəli təmin olunmasıdır.

Belə forumlarda bələdiyyələr, iri torpaq mülkiyyətçiləri digər aidiyyəti qurumlar torpaqların qanunvericiliyin tələblərinə uyğun istifadəsi ilə bağlı məlumatlandırılır. O cümlədən onlara torpaqların kateqoriyası və təyinatına uyğun istifadəsi ilə əlaqədar müvafiq qanunun müddəalarına riayət edilməsinin vacibliyi bildirilir. Torpaq idarəçiliyində yaranan qanun pozuntularına qarşı tətbiq olunan inzibati tənbeh tədbirləri, o cümlədən sanksiyalar, eləcə də torpaqların istifadəsi ilə bağlı yaranan hüquq və vəzifələr barədə maarifləndirilir.

**Fəxriyyə İKRAMQIZI**

# Yeni sərgi mövsümü başlanır

**Sərgilərin təşkilatçısı olan «Iteca Caspian» şirkətindən verilən məlumata görə, Azərbaycanda keçirilməsi planlaşdırılan beynəlxalq sərgilər çərçivəsində iştirakçılar bazarı öyrənərək peşəkar əlaqələr qura və yeni tərəfdaşlar cəlb edə biləcək, ziyarətçilər isə məhsul və ya xidmətlərlə tanış olmaq, onların istehsalçıları, yaxud tədarükçüləri ilə birbaşa görüşmək, faydalı əlaqələr qurmaq və mühüm müqavilələr imzalamaq imkanı əldə edəcəklər. Azərbaycanın dövlət strukturlarının dəstəyi ilə keçirilən sərgilərin əksəriyyətinin mövzusu iqtisadiyyatın qeyri-neft sektorunu əhatə edəcək.**



Yeni sərgi mövsümü 23-cü Azərbaycan Beynəlxalq Səhiyyə «BIHE 2017» və 11-ci Azərbaycan Beynəlxalq Gözəllik və Estetik Tibb «Beauty Azerbaijan 2017» sərgiləri ilə açılacaq. Bu sərgilər sentyabrın 28-dən 30-dək Bakı Ekspo Mərkəzində keçiriləcək. Sərgilərin ümumi ekspozisiyasında 100-dən artıq iştirakçının bir araya gəlməsi gözlənilir. İştirakçılar arasında Azərbaycan, Almaniya, Belarus, Çin, Hindistan, İtaliya, İran, İsveçrə, Litva, Polşa, Rusiya, Türkiyə, Ukrayna, və digər ölkələri təmsil edən şirkətlər olacaq. Bu il sərgidə tibbi və laboratoriya avadanlıqları (məsələn: əməliyyat masaları üçün avadanlıqlar, plastik cərrahiyyə üçün lazer avadanlıqları), farmakoloji preparatlar, tibbi alətlər, eləcə də farmakoloji avadanlıqlar təqdim ediləcək. Sərgi çərçivəsində geniş işgüzar proqram planlaşdırılıb. İlk dəfə keçirilməsi nəzərdə tutulan Həkimlər Konqresi müxtəlif səhiyyə sahələrini təmsil edən aparıcı həkimlərin iştirakı ilə bir neçə panel müzakirədən ibarət olacaq.

Hər il «Beauty Azerbaijan» sərgisi dünyanın müxtəlif ölkələrinə aid sənaye peşəkarlarını cəlb edərək onlara yerli bazara çıxmaq imkanı yaradır. «Beauty Azerbaijan 2017» sərgisində kosmetik vasitələr, gözəllik salonları üçün avadanlıqlar və kosmetoloji aparatlar təklif edən Azərbaycan, ABŞ, Rusiya, İtaliya və Koreya şirkətləri iştirak edəcək. Sərgi çərçivəsində ustad dərsləri («master-klass») və «B2B» formatlı görüşlərin keçirilməsi də planlaşdırılır.

Oktyabr ayında mövsümü 23-cü «WorldBuild Baku 2017»Azərbaycan beynəlxalq inşaat sərgisi, 10-cu yubiley «Aquatherm Baku 2017» beynəlxalq istilik, havalandırma və kondisiyalaşdırma sistemləri, su təchizatı, sanitariya, ətraf mühitin mühafizəsi texnologiyaları, üzgüçülük hovuzu və bərpa olunan enerji sərgisi və 10-cu yubiley «Securika Caspian 2017» Xəzər beynəlxalq mühafizə, təhlükəsizlik və xilasetmə vasitələri sərgisi davam etdirəcək.

Beləliklə, Azərbaycanın paytaxtını bir daha biznes sahəsində yeni məhsulların təqdimatı və gələcək planların elan edilməsi, eyni zamanda, dərhal rəy və təkliflərin əldə olunmasına imkan verən zəngin ixtisaslaşmış sərgilər mövsümü gözləyir. Sərgilər köhnə əlaqələrin dəstəklənməsi və möhkəmləndirilməsi üçün əla platforma, eləcə də yeni tanışlıqların və işgüzar münasibətlərin yarandığı məkandır. Sərgilər brendinq baxımından da çox vacibdir, çünki sənaye sərgiləri həm də iştirakçılara baxış, eləcə də görülmüş işlər və onların nəticələri barədə hesabatdır. Bundan başqa, bu tədbirlər elektron yazışma və zənglər vasitəsi ilə uzun müddət cavabsız qalan çoxsaylı texniki və kommersiya məsələlərini birbaşa danışıqlar çərçivəsində və qısa vaxt ərzində həll etməyə imkan verən məkandır. Bu baxımdan, heç də təsadüfi deyil ki, sərgiləri «əl sıxılan məkan» da adlandırırlar.

Artıq bütün sərgilərin veb-saytlarında elektron qeydiyyata start verilib. Ziyarətçi sərginin veb-saytında elektron qeydiyyatdan keçməklə, üzərində bar-kod olan elektron bilet əldə edə bilərlər.

**Rəşad**

## 2017-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Vergilər sentyabr ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin **oktyabr ayının 20-dən** gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin avqust ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Maliyyə lizinq bazarı

**Lizinq bank krediti, icarə, investisiya elementlərini özündə cəmləşdirən münasibətlər kompleksi olmaqla lizinq verənlə lizinq alan arasında əksər hallarda uzunmüddətli xarakter daşıyan maliyyə sazişidir.**

Lizinq müqaviləsinə görə lizinq verən lizinq alana lazım olan əmlakı satıcıdan mülkiyyət hüququ ilə əldə etməli və lizinq alanın müvəqqəti sahibliyinə və istifadəsinə verməlidir. Lizinq - sənaye avadanlıqlarının, maşınların, yeni texnologiyaların, istehsal təyinatlı bina və tikililərin istifadəsinin xüsusi sahibkarlıq fəaliyyəti formasıdır. İstehsalın inkişafı üçün kapital qoyuluşlarının edilməsində əsas maliyyə mənbəyi olan lizinq üzrə maliyyələşdirmə bank kreditlərindən daha uzunmüddətlidir. Azərbaycan banklarında 18 aydan artıq olan müddət üçün kredit verilmədiyi halda, lizinq üzrə kreditlərin verilməsində ən azı üç illik müddət nəzərdə tutulur. Maliyyə lizinqi, sürətli amortizasiya hesabına, kredit alana öz vergi borcları yükünü yüngülləşdirməyə imkan verir.

Hüquqşünas Xəyal Məmmədxanlı bildirmişdir ki, istənilən ölkənin iqtisadiyyatının inkişafında lizinq əməliyyatlarının vacib rolunun olması danılmaz faktdır: «Bu əməliyyatlar zamanı iqtisadiyyatın müxtəlif sahələrində mənəvi və fiziki cəhətdən köhnəlmiş əsas vəsaitlərin yenilənməsi baş verir. Lizinq əməliyyatları sahibkarlığı və iqtisadi təşəbbüsü fəallaşdırır, nəticədə büdcəyə vergi daxilolmalarını artırır. Lizinq eyni zamanda istehsal sahəsinə qoyulan investisiyaları fəallaşdırır, bilavasitə əmtəə istehsalçılarının maliyyə vəziyyətini yaxşılaşdırır, bütövlükdə kiçik və orta biznesin rəqabət qabiliyyətliliyini yüksəldir, bazara rəqabət qabiliyyəti daha yüksək olan məhsullar çıxarmaq üçün yeni texnologiyaların və avadanlıqların əldə edilməsinə imkan verir, keyfiyyətli əmtəə istehsal etməklə müəssisə həm daxili, həm də xarici bazarlarda davamlı rəqabət apara bilir».

Qeyd edilmişdir ki, böhrana qədər ölkə üzrə lizinq şirkətlərinin ümumi portfelində xeyli artım müşahidə olunurdu: «Azərbaycanda 1993-cü ildə 1 lizinq şirkəti fəaliyyət göstərirdisə, 1998-ci ildə onun sayı 2, 1999-cu ildə 3, 2000-ci ildə 4, 2004-cü ildə 9, 2005-ci ildə 11 olmuşdu. 2010-cu ildə isə 2005-ci illə müqayisədə lizinq şirkətlərinin sayı 2 dəfə artaraq 22-yə çatmışdı. 2003-cü ildə lizinq portfelinin həcmi 2,1 mln. dollar təşkil etdiyi halda, 2004-cü ildə bu rəqəm 7,2, 2005-ci ildə 34 mln. dollar olmuşdu. 2008-ci ildə bu göstərici 2005-ci illə müqayisədə 6 dəfədən çox artaraq 209 mln.dollara çatmışdı. 2009-cu ildə isə lizinq portfelinin respublika üzrə həcmi 2008-ci illə müqayisədə 2 dəfəyə qədər azalaraq 108,61 mln.dollar təşkil etmişdi. Hazırda Azərbaycanda 30-dan çox şirkət lizinq üzrə ixtisaslaşıb və onların lizinq əməliyyatlarının həcmi təxminən 200 mln. manat təşkil edir ki, bu da ÜDM-in təxminən 0,5%-i həcmindədir».

X.Məmmədxanlının sözlərinə görə, 2004-cü il yanvar ayının 1-dən qüvvəyə minmiş iki əhəmiyyətli dəyişiklik - lizinq əməliyyatlarının ƏDV-dən azad edilməsi və lizinq obyektinə sürətləndirilmiş amortizasiyanın tətbiq edilməsi bütövlükdə Azərbaycanda lizinqin inkişafına təkan vermişdir. «Azərbaycanda lizinqin inkişafının birinci mərhələsi 1995-ci ildə lizinq haqqında qanunun qəbul edilməsi ilə başlamışdır. Həmin dövrdə lizinqə müəyyən vergi güzəştləri verilmiş, hüquqi tənzimlənmə məsələləri ilkin həllini tapmağa başlamışdı. Ölkədə lizinqin sürətli inkişafı ilə səciyyələnən ikinci mərhələ isə 2003-cü ildə Azərbaycanda Beynəlxalq Maliyyə Korporasiyasının lizinqin inkişafı üzrə layihəsinin reallaşdırılmasından sonra başladı. Azərbaycanda lizinqin inkişafı üçün ilk növbədə vahid qanunun hazırlanması nəzərdən keçirilməlidir və həmin qanun lizinq şirkətlərinin operativ lizinq xidmətləri göstərməsinə şərait yaratmalıdır».

Hüquqşünas lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün yeni tənzimlənmə mexanizmlərinin müəyyənləşdirilməsinin vacibliyini xüsusi vurğulamışdır: «Hazırda Azərbaycan lizinq bazarının əsas problemi lizinq şirkətlərində maliyyə vəsaitlərinin çatışmazlığı ilə bağlıdır».

**Fəxriyyə İKRAMQIZI**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Vyetnam geniş vergi islahatı aparmağı planlaşdırır

Vyetnamın maliyyə naziri əlavə dəyər vergisi, tərkibində şəkər olan içkilər, tütün məhsullarına tətbiq edilən xüsusi vergilər də daxil olmaqla hazırda qüvvədə olan vergi rejiminə bir sıra dəyişikliklər edilməsi barədə təklif etmişdir. Buna paralel olaraq korporativ verginin dərəcəsini aşağı salmaq, eləcə də əhalidən tutulan gəlir vergisinin dərəcələrinə yenidən baxmaq da planlaşdırılır. 2019-cu ildən əlavə dəyər vergisinin dərəcəsi 10 faizdən 12 faizə, 2021-ci ilədək isə 14 faizə qədər artırıla bilər. Bundan əlavə, əlavə dəyər vergisi tutulan aşağı salınmış və ya sıfır dərəcə ilə mal və xidmətlərin siyahısında da əhəmiyyətli ixtisar aparılacağı gözlənilir. Korporativ vergiyə gəldikdə isə onun kiçik və orta biznes üçün aşağı salınacağı gözlənilir. Nazir gəlir vergisinin dərəcəsini müvafiq olaraq 5, 10, 20, 28, hətta 30 faiz üzrə diferensasiya etmək niyyətində olduğunu da bildirmişdir.

## Slovakiya araşdırmalar və işlənmələr sahəsində vergi güzəştlərini artırır

Slovakiya hökuməti araşdırmalar və işlənmələr (R&D) üzrə xərclərin artırılması da daxil olmaqla bir sıra vergi tədbirlərinin həyata keçirilməsini təsdiqləmişdir. Hazırda qüvvədə olan qaydalara əsasən, Slovakiyadakı şirkətlərə R&D üçün xərclərdən 25 faizlik çıxılma təqdim edilir və əvvəlki il üzrə R&D xərclərindən artıq olan məbləğə 25 faizlik əlavə də buna artırılır.

Maliyyə Nazirliyi tərəfindən gəlir vergisi haqqında qanuna təklif edilən dəyişikliklər R&D üzrə xərclərin baza çıxılmasını 100 faizə qədər artıracaq, eləcə də əvvəlki ilə aid xərclərdən artıq çıxılan məbləğ də 100 faizə qədər artırılacaq. Bundan əlavə, yüksək texnologiyalı sahələrə qoyulan investisiyaların stimullaşdırılması və yüksək ixtisaslı işçi qüvvəsinin cəlb edilməsi məqsədilə hökumət patent vergi rejimi tətbiq etmək niyyətindədir.

Bu təkliflərə həmçinin vergi ödəməkdən yayınmaya qarşı mübarizə və vergitutmanın şəffaflaşdırılması tədbirləri, o cümlədən «hədsiz çıxılmalara» yol vermiş vergi ödəyicilərinin siyahısının elan edilməsi, eləcə də aksizlər vasitəsilə dələduzluq edənlərlə mübarizə məqsədilə mineral yağ alverçiləri üçün daha sərt vergi qaydalarının tətbiq edilməsi də daxildir.

Nazirliyin yaydığı məlumata əsasən, təkliflərin böyük əksəriyyəti qarşıdakı ilin əvvəlindən qüvvəyə minəcək.

## Avstraliyada şəraba görə tutulan vergini tənzimləmək haqqında qanun qəbul edilib



Avstraliya hökuməti ölkənin vergi qanunvericiliyində edilmiş dəyişikliyi qəbul etmişdir. Bu dəyişikliyə əsasən, şəraba görə vergi tutulmasının meyarları dəqiq müəyyənləşdiriləcək: burada məqsəd eyni mala vergi güzəştinin tətbiq olunmasının qarşısını almaqdır. Hazırda şəraba görə tutulan vergi topdansatış qiymətinin 29 faizinə bərabərdir. Məsələ bundadır ki, bu məbləğ həm şərab idxalçılarından, həm də təsərrüfat subyekti yalnız mal və xidmətlərə görə vergi ödəyicisi kimi qeydiyyatda olduğu halda topdan satıcılardan tutulur.

Müəyyən edilmiş kvota hədlərinə uyğun məhsul istehsal edən şərabçılar üçün də vergi güzəştlərinin verilməsi nəzərdə tutulur. Qəbul edilmiş dəyişikliyə görə, ölkə istehsalçıları öz şəxsi xammalından 85 faizdən az olmamaq şərti ilə şərab istehsal etməlidirlər. Bundan əlavə, vergi güzəştlərinin maksimal həddi 500 min avrodan 350 min avroya endirilmişdir.

Avstraliyanın vergilər və yığımlar naziri belə hesab edir ki, qəbul edilmiş qanun dəyişikliyi şərabçılıq sənayesini ikiqat vergitutmadan azad etməyə imkan yaradacaq və bununla da ölkədə şərabın qiyməti ucuzlaşacaq.

## Bəyannamələrin səhv doldurulduğuna görə cərimələrin məbləği 30% artıb

ABŞ-da rüblük intervallar üzrə vergi hesabatlarının düzgün doldurulmadığına və ya vergilərin tam həcmdə ödənilmədiyinə görə Daxili Gəlirlər Xidməti (IRS) tərəfindən cərimələnmiş şəxslərin sayı artmaqdadır. Bu göstərici on il ərzində demək olar ki, üç dəfə çoxalmışdır.

İRS-nin cərimələrinin məbləği 2007-ci ildə 7,2 milyon dollar olduğu halda, bu göstərici 2016-cı ildə 10 milyon dollara çatmışdır. İRS-nin 2015-2016-cı illər üzrə statistik göstəricilər kitabındakı məlumatlar «Wall Street Journal» tərəfindən təhlil edilmişdir. Belə aydın olmuşdur ki, son beş il ərzində cərimələrin sayı 40 faiz artmışdır. «Washington Post» isə diqqəti 2007-ci ildən bəri son on maliyyə ili ərzində vergi cərimələrinin məbləğindəki 33 faizlik artıma yönəltmişdir.

Göstəricilərlə bağlı belə bir ehtimal irəli sürülmüşdür ki, sanksiyalarının sayındakı artım iqtisadiyyatın və qarşılıqlı ticarətin artımı ilə bağlı ola bilər. Çünki bu zaman vergi ödəyicilərinin əksəriyyətinin əlində bəyan etməli və vergi ödəməli olduqları gəlirlər haqqında dəqiq məlumat olmur. Bu, həm də onun əlaməti ola bilər ki, maliyyə böhranından sonra ABŞ-ın vergi ödəyiciləri öz maliyyə öhdəliklərini var gücləri ilə yerinə yetirməyə can atırlar.

## Özəl məktəblər xeyriyyə statusunu itirərək vergiyə cəlb edilə bilər

Şotlandiya hökuməti belə hesab edir ki, ölkədə fəaliyyət göstərən məktəblərə verilən imtiyazlar oxşar müəssisələrə qarşı ədalətsizliyə şərait yaratdığına görə məktəblər də biznes dərəcələri üzrə vergiyə cəlb edilməlidir. Universitetlərin və özəl idman klublarının da vergi yükünün artırılacağı gözlənilir.

Azad məktəblər şurası bəyan etmişdir ki, Şotlandiyadakı özəl məktəblərin vergi güzəştlərinin əlindən alınması vergi ödəyicilərinə baha başa gələcək, orada işləyən müəllimlərin və 30 minə yaxın şagirdin həyatına mənfi təsir göstərəcək. Bundan əlavə, məktəblilərin valideynlərinə təhsil haqqının artırılacağı ehtimalı barədə artıq məlumat verilmişdir.

Ekspertlərin rəyinə görə, Şotlandiyada 60 özəl məktəbin biznes dərəcəsi üzrə vergiyə cəlb edilməsi ölkə büdcəsinə ildə 5 milyon funt sterlinqə (10,7 milyon manat) yaxın vəsait gətirəcək. Məktəblərin ödəyəcəkləri məbləğlər fərqli olacaq, çoxlu əmlakı olan orta və iri təhsil müəssisələri isə ildə yarım milyon funt sterlinq vergi ödəmək məcburiyyətində qala bilərlər.

Hökumət tərəfindən təsdiq edilmişdir ki, Şotlandiyanın idman klublarının, universitet və məktəblərinin xeyriyyəçilik statusuna malik olması analoji xidmətlər göstərən digər müəssisələr qarşısında onlara «ədalətsiz imtiyaz» vermiş olur. İcarəyə verilmiş idman zalları və ya yataqxanalar kimi kommersiya məqsədli əmlaka görə universitetlər biznes dərəcələri üzrə vergi ödəməlidir.

## Danimarkada əcnəbi işçilər üçün vergi güzəştlərinin müddəti uzadıla bilər

Danimarka Sənayeçiləri Konfederasiyası xaricdən gəlib bu ölkədə fəaliyyət göstərən bir sıra ixtisaslı mütəxəssislər üçün tətbiq edilən xüsusi vergi güzəşti sistemini genişləndirmək barədə hökumətin təşəbbüsünü dəstəkləmişdir.

Hazırda Danimarkada əcnəbi işçilər gəlir vergisini 26 faizlik güzəştli dərəcə ilə ödəyirlər. Əlavə olaraq 8 faizlik əmək sığortası ödənilir ki, bunun hesabına işsizlik üzrə müavinətlər və xəstəlik bülletenləri maliyyələşdirilir.

Lakin burada bir «əmma» var - əcnəbilər vergi güzəştindən cəmi beş il istifadə edə bilərlər. Sənaye, biznes və maliyyə naziri Brayn Mikkelson mətbuata açıqlamasında bildirmişdir ki, hökumət bu müddəti yeddi ilə qədər artırmağı planlaşdırır. Bu plan gerçəkləşəcəyi təqdirdə verginin dərəcəsi 27 faizə qaldırılacaq.

«Biz ölkə hökumətinin bu addımı atmasını alqışlayırıq, çünki Danimarka üçün ixtisaslı mütəxəssislər çox lazımdır, - Danimarka Sənayeçilər Konfederasiyasının nümayəndəsi bildirmişdir. - Vergi güzəştinin müddətinin uzadılması bizə keyfiyyətli işçi qüvvəsini cəlb etməyə və ölkədə saxlamağa imkan yaradacaq. Əcnəbilər güzəşt müddəti bitəndən sonra da ölkədə qalacaqlar, öz pullarını burada xərcləyəcəklər ki, bu da ölkənin iqtisadiyyatının xeyrinədir».

## Beynəlaxlq Valyuta Fondu: Çin vergi sisteminin proqressivliyini artırmalıdır

Beynəlxalq Valyuta Fondu (BVF) Çin üçün hazırladığı məruzəsində əməkhaqqı aşağı olan əhali üçün vergi sisteminin proqressivliyini və ədalətliliyini artırmağı tövsiyə etmişdir. Fondun məruzəsində qeyd edilmişdir ki, Çində gəlirlərin qeyri-bərabərliyi dünya üzrə ən yüksək həddədir və müvafiq tədbirlərin görülməyəcəyi təqdirdə bu mənzərə daha da tündləşə bilər.

Bundan əlavə, BVF vergi yığımının ümumi daxili məhsulda təxminən 20 faiz təşkil etməklə ən aşağı səviyyədə olduğunu göstərmişdir - bu göstərici OECD ölkələri üzrə orta hesabla 34 faizdir. Tarazsızlığın aradan qaldırılması üçün atılacaq addım kimi yerli hakimiyyət orqanları tərəfindən müəyyənləşdirilən müntəzəm əmlak vergisinin tətbiqi tövsiyə olunmuşdur. Bununla bərabər, vergi çıxılmalarının ləğv edilməsi təklif edilmişdir, çünki hazırkı vəziyyətdə şəhərlərdə çalışan fəhlələrin təxminən 80 faizi gəlir vergisi ödəmir.

BVF mütəxəssislərinin rəyinə əsaəsn, gəlirdən və əmlakdan tutulan birbaşa vergilər birdən deyil, geniş vergi islahatı çərçivəsində tədricən qaldırılmalıdır. Məsələn, vergi islahatı ekoloji vergilərin, o cümlədən faydalı qazıntılar və ətraf mühitin çirkləndirilməsi ilə bağlı vergilərin əhəmiyyətli dərəcədə artırılmasını əhatə etməlidir.

Çin hökuməti isə atmosferə karbon qazı atqılarına görə vergi tutulması təklifi ilə razı deyil, çünki bu, ətraf mühitin çirkləndirilməsinə qarşı gələcəkdə vergi bazasının genişləndirilməsi prosesini mürəkkəbləşdirə bilər.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Buddizmdə Budda Şakyamuninin əsas şagirdlərindən biri; 2.Korroziyaya davamlı titan və nikel birləşməsi nəticəsində əmələ gələn ərinti; 3.Lerik rayonunda kənd; 4.Gürcü kişi adı; 5.Bitki növü; 6.Mərkəzi Çində Sunşan dağında yerləşən məbəd; 9.Belarus Respublikasında şəhər; 13.Qvineya ərazisində yaşayan xalq; 15.Xəz dərili heyvan növü; 16.Azərbaycan ərazisində mövcud olmuş Manna dövlətinin dördüncü hökmdarı; 17.Yeni doğulmuş ay. Türkiyə və Azərbaycanın dövlət bayrağında bu simvoldan istifadə olunur; 18.Yer kürəsi və digər nəhəng səma cismlərinin səthi üzərində yaranan relyef forması; 20.İtaliyada şəhər və eyniadlı futbol klubu; 21.Cənubi Koreyada şəhər. **Soldan sağa:** 1.Bir dövlətə məxsus məskunlaşmamış ərazinin digər dövlətə qeyri-qanuni yolla (zorla, qəsb etməklə) birləşdirilməsi; 5.Polşada şəhər; 7.Müəllifin özü tərəfindən yazılmış əlyazması, məşhurların müxtəlif əşyalar üzərindəki imzası; 8.Azərbaycan ədəbiyyatında yaranmış epopeya; 10. Avropada Volqadan sonra ikinci ən uzun çay; 11. Azərbaycanın milli mətbəxinə aid xörək; 12. Elastik boru; 14.Qədim Roma imperatoru; 19.Yer kürəsinin ən hündür sıra dağları; 21.Xanəndə, muğam ifaçısı, Qarabağ xanəndəlik məktəbinin tanınmış nümayəndələrindən biri, Azərbaycan Respublikasının xalq artistinin adı; 22.İspaniyanın şimal-qərbində çay; 23.Faydalı qazıntı (mineral); 24.Adriatik dənizi ilə Aralıq dənizi arasında yerləşən dəniz; 25.Dinozavrların bir növü.



*Yer kürəsinin ən hündür sıra dağları*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Bülbül; 2.Rubikon; 3.İsrar; 4.Tunika; 5.Moeza; 6.Libero; 9.Anje; 13.Kent; 15.Viterit; 16.Mehrab; 17.Etalon; 18.Berinq *(Vitus)*; 20.Dəyər; 21.Küvye *(Jorj)*. **Soldan sağa:** 1.Barrister; 5.Mil; 7.Labirint; 8.Kerb; 10.Ülkər; 11.Kentavr; 12.Oniks; 14.Heyva; 19.Erdenet; 21.Ketle *(Adolf)*; 22.Röya; 23.Əliverdi; 24.Bor; 25.Bundestaq.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Güləş üzrə dünya çempionatı başa çatıb

**Fransanın paytaxtı Paris şəhərində keçirilmiş yarışdan yığma komandamız 1 qızıl və 2 bürünc medal ilə qayıdıb.**

Sərbəst güləş yarışlarında 61 kiloqram çəkidə Hacı Əliyev bütün rəqiblərinə tam üstünlüklə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bununla idmançımız sərbəst güləş tarixində ilk üçqat dünya çempionu adını qazanıb.

Böyüklər arasında ilk dəfə qatıldığı dünya çempionatında 97 kiloqram çəkidə yarışan digər sərbəst güləşçimiz Aslanbek Alborov və yunan-Roma güləşində 80 kiloqram çəkidə yarışan Elvin Mürsəliyev çempionatı bürünc medalla başa vurub. Sərbəst güləşçilərimizdən Cəbrayıl Həsənov (74 kq) və Aleksandr Qostiyev (86 kq), Yunan-Roma güləşçilərimizdən İslam Abbasov (85 kq) yarışı beşinci sırada tamamlayıblar.

Yığma komandamızın güləşçilərini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Güləş Federasiyasının nümayəndələri, idmançıların yaxınları və media təmsilçiləri qarşılayıblar.

Sərbəst güləş üzrə yığma komandamızın baş məşqçisi Firdovsi Umudov deyib ki, dünya çempionatında yarışlar gərgin mübarizə şəraitində keçdi. Buna baxmayaraq güləşçilərimiz əzmlə sonadək mübarizə apardılar və uğurlu nəticələr qazandılar.

Yüksək nəticələr dövlət başçısının ölkəmizdə idmana və idmançılara göstərdiyi diqqət və qayğı sayəsində əldə edilib. Məşqçi yaradılan şəraitə görə Gənclər və İdman Nazirliyinə, Azərbaycan Güləş Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirib.



# Dünya çempionatında gümüş medal qazandı

**Avqustun 28-də Azərbaycan cüdoçusu Orxan Səfərov Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında gümüş medala sahib olub.**



Yarışın ilk günündə 60 kiloqram çəki dərəcəsində çıxış edən dünya və Avropa çempionatlarının mükafatçısı Orxan Səfərov finala gedən yolda bolqarıstanlı Yanislav Qerçevi və Portuqaliya təmsilçisi Qonsalo Mansinyonu ippon fəndi ilə məğlub edib. O, üçüncü görüşdə dünya və Asiya çempionu, Rio Olimpiadasının gümüş mükafatçısı qazaxıstanlı Yeldos Smetovu əzmkar mübarizədə məğlub edərək yarımfinala vəsiqə qazanıb.

Növbəti mərhələdə Rio Olimpiadasının bürünc mükafatçısı özbəkistanlı Diyorbek Urozboeva ilə üzüzə gələn idmançımız bu dəfə də ipponla qələbə qazanaraq finala yüksəlib.

Həlledici görüşdə 2013-cü ilin dünya və son Asiya çempionu, yaponiyalı Naohişa Takato ilə qarşılaşan idmançımız məğlub olaraq gümüş medalla kifayətlənib.

Dünya çempionatında 134 ölkədən təxminən 800 cüdoçu mübarizə aparır. Azərbaycan milli komandası bu mötəbər yarışda 17 nəfərlik (9 kişi, 8 qadın) geniş heyətlə təmsil olunur. Çempionata sentyabrın 3-də yekun vurulacaq.

# Berlində ikinci oldu




Türkiyə atletika tarixinin ilk dünya çempionu olan azərbaycanlı Ramil Quliyev Berlində keçirilən ISTAF oyunlarında gümüş medal qazanıb.

Anadolu agentliyinin məlumatına görə, yüngül atlet kişilər arasında 100 metr məsafəyə qaçış üzrə yarışı 10.09 saniyəlik nəticə ilə ikinci sırada tamamlayıb.

Yarışmanı yamaykalı Julian Forte (9.91) qazanıb. Böyük britaniyalı Adam Gemili isə 10.10 saniyəlik nəticə ilə 3-cü olub.

# Güləşçilər yeni çəki dərəcələrində yarışacaqlar

Ötən həftə Fransanın paytaxtı Parisdə keçirilən dünya çempionatı zamanı Dünya Güləş Birliyi İdarə Heyətinin növbəti toplantısı təşkil olunub.

Müzakirə edilən məsələlərdən ən başlıcası çəki dərəcələrində edilən dəyişikliklər olub. Dünya Güləş Birliyinin yeni qərarına əsasən, böyüklər yaş kateqoriyasında çəki dərəcələrinin sayı 8-dən 10-a artırılıb. Olimpiya çəki dərəcələrinin sayı isə 6 olaraq qalıb. Beləliklə, 2018-ci ilin yanvarın 1-dən etibarən təqvim planı üzrə bütün güləş yarışları dəyişilmiş çəki dərəcələri üzrə keçiriləcək.

Yeni qaydalara görə, sərbəst güləşçilər 57, 61, 65, 70, 74, 79, 86, 92, 97, 125 kiloqram, yunan-Roma güləşçiləri 55, 60, 63, 67, 72, 77, 82, 87, 97, 130 kiloqram, qadın güləşçilər isə 50, 53, 55, 57, 59, 62, 65, 68, 72 və 76 kiloqram çəki dərəcəsində yarışacaqlar.

Bundan başqa müzakirə olunan güləş qaydalarında bəzi dəyişikliklər təsdiqlənib. Bu il yeniyetmə güləşçilərin qitə və dünya birinciliklərində sınaqdan keçirilən və 2 günlük yarış proqramı üzrə təklif olunan qayda dəyişikliyi 2018-ci ilin yanvarın 1-dən bütün yaş kateqoriyalarında tətbiq ediləcək. İkinci yarış günündə normadan 2 kiloqram artıq çəkidə güləşməyə icazə verilməsi isə yalnız 2018-ci ildə keçiriləcək yarışlarda tətbiq olunacaq. 2019-cu ilin yanvarından isə normadan artıq çəkidə güləşməyə icazə verilməyəcək.

## mozaika

### cəmiyyət

# Ən kiçik robot-cərrah

Tibbi avadanlıq istehsalı üzrə ixtisaslaşmış Britaniyanın «CMR» şirkətinin mühəndisləri böyük ölçülü robotlarla rəqabət aparmaq qabiliyyətinə malik və incə əməliyyatların icrası üçün nəzərdə tutulmuş ucuz, yığcam və təcrübəli robot hazırlayıblar.



«Versius» adlı robot-cərrahın ölçüləri 60x60 santimetr təşkil edir. Qiyməti isə analoji qurğularla müqayisədə iki dəfə ucuzdur. Robot pasiyentin bədənində diametri 1santimetrədək olan kəsik etmək tələb olunan əməliyyatları keçirə biləcək. Belə əməliyyatlar incə hərəkətlər tələb edir, buna görə də robot çox elastikdir, onun manipulyatoru insan əlini xatırladır. Həmçinin robotun bütün hərəkətlərini üçölçülü ekranda izləmək mümkündür. Bu, robot-cərraha əməliyyatı daha sürətli və səmərəli etməyə imkan verəcək.

Gələn il kiçik ölçülü robot-cərrahın işçi prototipi təqdim ediləcək.

### elm

# İnsanların həyatı dəyişəcək

ABŞ-ın Dartmut Kollecinin əməkdaşları yaşlı insanlarda psixi pozğunluq və digər xroniki xəstəliklərin gedişatına müstəqil nəzarət etməyə kömək edən yeni proqram yaradıblar. Müəyyən vaxt ərzində (təxminən üç ay) xəstələr stressə dayanıqlıq, müalicəyə sadiqlik və psixoaktiv maddələrdən istifadə kimi mövzulara dair konsultasiyalar alacaqlar. Həkimlər proqram vasitəsilə pasiyentləri məsafədən izləyə və problem yarandıqda müdaxilə edə biləcəklər.

Tədqiqatda ciddi psixi pozğunluq və digər xroniki xəstəliklərdən əziyyət çəkən 10 pasiyent iştirak edib. İştirakçılar proqramı sadə və rahat hesab ediblər. Hətta müasir texnikanı anlamayan insanlar yeni proqramdan asanlıqla istifadə edə biliblər.

### texnologiya

# İlk arktik «nanoəlcək»

ABŞ fizikləri adi AA-batareyaların enerjisindən istifadə edərək ən sərt arktik temperaturda belə normal temperatura qədər qızmaq imkanına malik nanomaterial yaradıblar. Alimlər ABŞ ordusunun sifarişinə əsasən hazırlanmış bu materialı Vaşinqtonda ABŞ Kimya Cəmiyyətinin illik görüşündə təqdim ediblər.



Alimlərin hazırladığı pambıq parça nisbətən zəif AA-batareyaları və ya qol saatının qidalanma elementi ilə özünü 37 dərəcə Selsiyə qədər cəmi bir dəqiqə ərzində qızdıra bilir. Bu parçadan hazırlanmış əlcəklər yun, dəri və ya sintetik analoqlarına nisbətən çox yüngül və daha incə olacaq ki, bu da əsgərlərə yükləri daha yaxşı daşımağa və döyüşdə özünü daha yaxşı göstərməyə imkan verəcək.

Alimlərin sözlərinə görə, əlcəkdə istifadə olunmuş nanosaplar bir neçə yuyulmaya və digər ağır mexaniki yüklənmələrə dözümlüdür.

Hazırda bu kimi «nanoparçaların» pambıq parçaya nisbətən yüklənməyə daha çox dözümlü olan sintetik analoqlarının hazırlanması üzərində araşdırmalar aparılır.

Gələcəkdə istənilən iqlim şəraitinə uyğun belə parçadan digər geyimlərin də hazırlanması nəzərdə tutulur.

### tarix

# Kiş alban məbədi

Şəkinin Kiş kəndində yerləşən qədim alban məbədini bu ilin əvvəlindən 10 minə yaxın turist ziyarət edib. Gələnlərin 4300 nəfəri xarici turistlər olub. Onların arasında Rusiya, İspaniya, İtaliya, Almaniya və ərəb ölkələrindən gələnlər üstünlük təşkil edib.



Kiş Tarixi-Memarlıq Qoruğunun direktoru İlhamə Hüseynovanın məlumatına əsasən, Kiş məbədi ilin bütün fəsillərində Şəkiyə gələn yerli və xarici turistlərin, həmçinin rəsmi qonaqların, beynəlxalq tədbir iştirakçılarının ən çox üz tutduqları, ziyarət etdikləri tarixi məkanlardan biridir. Eramızın birinci əsrində Qafqaz Albaniyasında geniş yayılan Ay məbədinin özülü üzərində qurulan bu məbəd bütün Qafqazda təqribən iki min il bundan əvvəl xristianlığın yayıldığını rəmzləşdirən məşhur tarixi abidədir. Əhəng daşından tikilən bu abidə erkən orta əsrlərdə yaranan ilk günbəzli, zal tipli məbəddir. 2001-ci ilin mayında abidədə Azərbaycan-Norveç birgə «Kiş» layihəsi üzrə bərpa işlərinə başlanılıb və 2003-cü ilin sentyabrında məbədin açılışı olub. Layihə məşhur norveçli səyyah, etnoqraf və alim Tur Heyerdalın dəstəyi ilə həyata keçirilib. Alimin xatirəsini əbədiləşdirmək üçün məbədin qarşısında onun büstü də qoyulub.

Kiş alban məbədi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarı ilə dünya əhəmiyyətli abidələr siyahısına daxil edilib və tarix-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur. Məbədin yerləşdiyi ərazidə 2003-cü ildə Kiş Tarixi-Memarlıq Qoruq-Muzeyi yaradılıb. 2009-cu ildə isə muzeyə ayrıca qoruq statusu verilib.

### təbiət

# Nadir ağ koala

Avstraliya zooparkında son aylar ərzində doğulan kisəli heyvanlardan biri mütəxəssislərin marağına səbəb olub. Ekspertlər ağ tüklü dişi koalanın doğulmasını nadir hal sayırlar.



Avstraliyanın Queensland zooparkının mütəxəssislərinin bildirdiyinə görə, koala balasının ağ rəngi albinizm xəstəliyi ilə bağlı deyil. Onlar belə güman edirlər ki, bala koalanın ağ tükü irsi yolla keçmiş resessiv genin təsiri nəticəsində əmələ gəlib.

Ekspertlər hesab edir ki, bu rəngdə koala vəhşi təbiət şəraitində doğulsaydı, onun sağ qalma şansı çox az olacaqdı.

«Baytarlıqda bu hal «gümüşü genin» təsiri kimi göstərilir. Heyvanlarda ağ tük onlar böyüdükcə tökülür və onların rəngi tədricən normal hala gəlir»,- deyə zooparkın baytar klinikasının direktoru, doktor Rosie Buç deyib.

Mərkəzi Queensland universitetinin ekoloqu, doktor Alistair Melzer isə qeyd edib ki, koalaları 20 ildən artıqdır ki, müşahidə edir və indiyə qədər onların arasında ağ dərili heyvana rast gəlməyib. Onun sözlərinə görə, koalalar qartal və bayquş kimi yırtıcı heyvan sayılır. Vəhşi təbiət şəraitində ağ rəngdə heyvanın özünü gizli saxlaya bilməsi çətindir.

**Müdriklər deyib ki...**

***Haqlı hesab etdiyin yolda tək də qalsan, irəliləməlisən.***

*Tofiq Fikrət (1867-1915)*

